

# Nə qədər ki Azərbaycan var, Mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam!


Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 280 (8007) ÇƏRŞƏNBƏ, 12 dekabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik




## HEYDƏR ƏLİYEV: zaman, şəxsiyyət və əbədiyyət

Zaman - dövr, dövran, vaxt mənalarını ifadə edən anlayış olub, həm də konkret tarixi-siyasi şəxsiyyətlərin adı və fəaliyyəti ilə əlaqədar olan mərhələni, bəzən isə geniş mənada epoxanı ifadə edir.

Böyük siyasət - zamanın fövqünə qalxa bilən və onu ifadə edən, cəmiyyəti istiqamətləndirən siyasətdir.

Şəxsiyyət və zaman münasibətlərində şəxsiyyət ağırlıq təşkil etdikdə zaman irəli gedir.

Şəxsiyyət zamanı idarə etməyi, qabaqlamağı, irəli aparmağı bacardıqda tarixi şəxsiyyətə çevrilir. Belə tarixi məqamlarda şəxsiyyət zamanı yaradır və ona öz damğasını vurur.

Heydər Əliyev böyük zəka və iradə ilə zamanı nəinki idarə etmiş, qabaqlamış, irəli aparmışdır. Sözün əsl mənasında Heydər Əliyevin simasında şəxsiyyətin miqyası mövcud cəmiyyətin səviyyəsindən yuxarıda dayanmış, onun inkişaf yollarına işıq salmışdır.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ölkəmizin tarixində öz epoxasını yaratmış qüdrətli tarixi şəxsiyyətdir. Azərbaycan Respublikasına rəhbərlik etdiyi 1969-1982 və 1993-2003-cü illər çoxəsrlik Azərbaycan tarixinin Heydər Əliyev epoxası dövrüdür.

Birinci mərhələni əhatə edən 1969-1982-ci illər Azərbaycan tarixinin qızıl dövrü hesab edilir. Bu tarixi mərhələdə Azərbaycan keçmiş Sovetlər İttifaqında geridə qalmış bir respublikadan inkişaf etmiş ölkə səviyyəsinə yüksəldilmişdir. İqtisadiyyatın bütün sahələri üzrə göstəricilər rekord həddə çatdırılmış, xalqın yaşayış səviyyəsi köklü surətdə dəyişmişdir. Lakin iqtisadi göstəricilər əsas olsa da və digər istiqamətlərdə olan inkişaf üçün stimullaşdırıcı faktor funksiyası daşısa da, "qızıl dövr" - milli intibah mərhələsi üçün tam yetərli deyildir. Bunun üçün mütləq cəmiyyətin hərtərəfli inkişafı və harmoniyası baş verməli, xüsusən elmi-ədəbi-mədəni gedişat və milli-mənəvi özünüdərk prosesləri dərinləşməli və zamanın miqyası səviyyəsinə çatdırılmalıdır.

*Ardı 2-ci səh.*

## Qasım RZAYİ: "Prezident İlham Əliyevin Azərbaycanla İran arasında əlaqələrin inkişafı ilə bağlı tövsiyələrini və dərin mənalı fikirlərini eşitməkdən məmnunam"



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də İran İslam Respublikasının Sərhəd Qoşunlarının komandanı Qasım Rzayinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən sərhədlərin mühafizəsi ilə bağlı əməkdaşlıq sahəsində uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev iki ölkə vətəndaşlarının, iş adamlarının gediş-gəlişinin, yükdaşımalarının həyata keçirildiyini vurğulayaraq, İran-Azərbaycan sərhədini dostluq sərhədi kimi dəyərləndirdi. Ölkələrimizin sərhəd xidməti rəhbərlərinin görüşünün önəmini qeyd edən dövlət başçısı İran-Azərbaycan əlaqələrinin inkişafında Sərhəd Qoşunları xidmətlərinin əməkdaşlığının mühüm yer tutduğunu dedi. Prezident İlham Əliyev İran İslam Respublikasının Sərhəd Qoşunlarının komandanı Qasım Rzayinin ölkəmizə səfərinin əməkdaşlığımızın daha da genişləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.

İran İslam Respublikasının Sərhəd Qoşunlarının komandanı Qasım Rzayi ölkəmizlə bağlı xoş hislərini ifadə edərək, Prezident İlham Əliyevə yorulmaz fəaliyyətində uğurlar arzuladı. O, Azərbaycan Respublikasının Prezidenti ilə yenidən görüşməkdən, dövlətimizin başçısının iki ölkə arasında əlaqələrin inkişafı ilə bağlı tövsiyələrini və dərin mənalı fikirlərini eşitməkdən məmnunluq hissi keçirdiyini dedi və Bakıya səfərlərinin onlarda xoş xatirələr doğurduğunu bildirdi.

Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

## Azərbaycan NATO-nun etibarlı tərəfdaşıdır



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də NATO Müttəfiq Qüvvələrinin Avropadakı Baş komandanı (SACEUR) Körtis Skaparrottinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın NATO ilə tərəfdaşlığının uzun tarixə və geniş gündəliyə malik olduğunu deyən dövlət başçısı bu ilin iyul ayında NATO-nun mənzil-qərargahına son səfərini və Brüsseldə keçirilmiş Zirvə toplantısında iştirakını xatırladı və bunun əlaqələrimizin inkişafına müsbət təsir göstərdiyini qeyd etdi. Dövlət başçısı ümumilikdə NATO-nun mənzil-qərargahına etdiyi bütün səfərlərin müsbət xarakter daşıdığını qeyd etdi. Prezident İlham Əliyev NATO-nun Əfqanıstanda Qətiyyətli Dəstək Missiyasında ölkəmizin fəal iştirak etdiyini, Azərbaycan hərbçilərinin sayının artırıldığını və əməliyyatlarda iştirak edən dövlətlərə zəruri nəqliyyat və logistik dəstək göstərildiyini vurğuladı. Prezident İlham Əliyev, eyni zamanda, Azərbaycanın ikitərəfli əsasda da Əfqanıstana dəstək göstərdiyini, ölkəmizin təşəbbüsü və iştirakı ilə həyata keçirilən nəqliyyat layihələrinin Əfqanıstan üçün yeni imkanlar yaratdığını vurğuladı. Dövlət başçısı NATO-nun yüksək səviyyəli nümayəndə heyətinin ölkəmizə səfərinin ikitərəfli tərəfdaşlığın gündəliyində duran vacib məsələlərin müzakirəsi üçün əlverişli imkan yaratdığını dedi.

NATO Müttəfiq Qüvvələrinin Avropadakı Baş komandanı Körtis Skaparrotti onu və rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etdiyinə və Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ilə dekabrın 12-də Bakıda keçirilməsi nəzərdə tutulan görüşə evsahibliyinə görə dövlət başçısına minnətdarlığını bildirdi. O, Bakının NATO-Rusiya formatında görüşünün keçirilməsi üçün tam münasib məkan olduğunu, Azərbaycanın artıq ikinci dəfədir ki, belə bir tədbirə evsahibliyi etməsinin əhəmiyyətini vurğuladı. Qonaq Azərbaycanın NATO-nun etibarlı və fəal tərəfdaşı olduğunu qeyd etdi, ölkəmizin Əfqanıstanda Qətiyyətli Dəstək Missiyasına verdiyi töhfəsini, Azərbaycan hərbçilərinin Əfqanıstanda və eləcə də ölkəmizin hərbçilərinin peşəkarlıqla NATO qərargahlarında xidmətini və NATO-nun təlimlərində iştirakını yüksək qiymətləndirdi.

Dövlət başçısı qlobal təhlükəsizliyə aid olan vacib məsələlərin müzakirə edilməsi üçün bir çox ölkələr arasından Azərbaycanın seçilməsini ölkəmizə olan hörmət və etimadın təzahürü kimi dəyərləndirdi və bunun, eyni zamanda, ölkəmizin regional təhlükəsizlik, inkişaf və sabitliyin təmin edilməsində oynadığı rolun və yürütdüyü siyasətin göstəricisi olduğunu dedi.

## Ləki-Qəbələ dəmir yolu xəttinin tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Ölkə iqtisadiyyatının neftdən asılılığının azaldılması, digər sahələrdən gələn gəlirlərin artırılması, qeyri-neft sektorunun sürətli inkişafı respublikada aparılan iqtisadi islahatların əsas istiqamətlərindəndir. Qeyri-neft sektorunun iqtisadi cəhətdən ən sərfəli sahələrindən biri hesab edilən turizmin inkişafı ilə bağlı son illərdə həyata keçirilən tədbirlər nəticəsində bu sahədə ciddi nailiyyətlər əldə edilmiş, o cümlədən turizm obyektlərinin sayı çoxalmış, xidmət səviyyəsi yüksəlmiş, yerli əhalinin milli turizmə marağı, eləcə də ölkəyə səfər edən turistlərin sayı xeyli artmışdır.

Ölkənin əsas turizm mərkəzlərindən biri olan Qəbələ şəhərinə və əks istiqamətdə dəmir yolu ilə sərnişindaşımaların həyata keçirilməsi üçün Ağdaş rayonu ərazisində yerləşən Ləki stansiyasının yaxınlığından uzunluğu 43,0 km olan yeni dəmir yolu xəttinin tikintisi turizm infrastrukturunun yaxşılaşdırılmasına və turizm obyektlərinə əlyetərliyin təmin edilməsinə öz töhfəsini verəcəkdir.

Bu istiqamətdə işlərin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Ləki-Qəbələ dəmir yolu xəttinin tikintisinin layihə-smeta sənədlərinin hazırlanması, tikinti altına düşən torpaqların özgəninkiləşdirilməsi və tikinti işlərinin aparılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.3.7-ci yarımbəndində göstərilmiş məbləğin 30,0 (otuz) milyon manatı "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. bu sərəncamın 1-ci hissəsində qeyd edilən işlərin icrası ilə əlaqədar torpaqların dövlət ehtiyacları üçün alınması məqsədilə zəruri tədbirlər görsün;

2.2. bu sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

4. Ləki-Qəbələ dəmir yolu xəttinin layihə-smeta sənədlərinin hazırlanması və tikinti işlərinin həyata keçirilməsi "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinə həvalə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 dekabr 2018-ci il*

Azərbaycanın özü qədər əbədi

# Heydər Əliyev: zaman, şəxsiyyət və əbədiyyət



*Əvvəli 1-ci səh.*

Məhz görkəmli dövlət xadimi Heydər Əliyev 1969-1982-ci illərdə Azərbaycan Sovet Respublikasında qazanılan iqtisadi göstəricilərdən daha yüksək səviyyədə xalqın milli-mənəvi intibahını formalaşdırmağa nail olmuşdur.

Əvvəla, Heydər Əliyevin Azərbaycan Respublikasına rəhbərlik etdiyi illərdə Azərbaycan elmi, ədəbiyyatı və incəsənəti yüksək templərlə inkişaf etdirilmişdir. Bu dövrdə Azərbaycan elminin, ədəbiyyatının və mədəniyyətinin canlı klassikləri formalaşmış, keçmiş Sovetlər İttifaqında və onun hüdudlarından kənarda da şöhrət qazanmışdır.

Heydər Əliyev Sov.İKP MK-nın Siyasi Bürosundakı mövqeyindən və nüfuzundan istifadə edərək Qara Qarayev, Rəşid Behbudov, Mirzə İbrahimov, Rəsul Rza, Süleyman Rüstəm, Süleyman Rəhimov, Mustafa Topçubaşov və başqalarına Sosialist Əməyi Qəhrəmanı fəxri adının verilməsinə nail olmuşdur. Heydər Əliyev görkəmli elm və ədəbiyyat xadimləri akademik Ziya Bünyadov, professor Abbas Zamanov, şair Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk kimi böyük vətəndaşlıq mövqeyinə və milli ideallara malik olan Azərbaycan ziyalılarını baş verə bilcək hər bir təhlükədən nəinki müdafiə etmiş, hətta onların elmi və bədii yaradıcılığının daha da inkişaf etdirilməsinə hər cür şərait yaratmışdır. Ulu öndər ədəbiyyat və sənət meydanına yeni qədəm qoymuş Azərbaycan "altmışıncılar"ına dəstək vermiş, onların mövqelərinin daha da möhkəmləndirilməsinə münbit zəmin hazırlamışdır.

Bu proses ədəbiyyatla yanaşı, incəsənətin bütün sahələrində: rəssamlıqda, musiqidə, teatrda və kinoda da eyni səviyyədə getmiş, bu sahələrin hər birində yeni liderlər və qiymətli əsərlər meydana çıxmışdır. SSRİ xalq artisti Mehdi Məmmədov Heydər Əliyev epoxasının qüdrətli rejissoru və mütəfəkkir sənətşünasıdır. Lətif Kərimov və Kamil Əliyev milli xalça sənətini dünyada tanıdan əsərlər meydana qoymuşlar. Tahir Salahov, Mikayıl Abdullayev, Səttar Bəhlulzadə, Maral Rəhmanzadə və başqaları təsviri sənəti "göylərə" qaldırmışlar.

SSRİ xalq artisti Rəşid Behbudov və SSRİ xalq artisti Müslüm Maqomayev nəinki Azərbaycanda, Sovetlər İttifaqı miqyasında və hətta bu ölkənin hüdudlarından kənarda da musiqi sənətinin əfsanəsi kimi şöhrət qazanmışlar. Bu dövrdə Azərbaycanda heykəltəraşlıq sənəti inkişaf etmiş, ölkənin paytaxtı Bakı şəhəri nadir heykəltəraşlıq sənəti muzeyinə çevrilmişdir. Azərbaycan teatrları ölkə və dünya ədəbiyyatı klassiklərinin əsərlərini səhnəyə çıxararaq xalqa çatdırmışdır.

Azərbaycan Milli Elmlər Akademiyası inkişaf etdirilmiş və əldə etdiyi mühüm nailiyyətlərə görə 1975-ci ildə "Xalqlar dostluğu" ordeninə layiq görülmüşdür. Azərbaycan Yazıçılar İttifaqı, Bəstəkarlar İttifaqı, Rəssamlar İttifaqı nüfuzlu yaradıcılıq təşkilatları səviyyəsinə qaldırılmışdır. Bir sözlə, 1969-1982-ci illərdə Azərbaycanda elm, ədəbiyyat və mədəniyyət sahəsinin müvəffəqiyyətləri ilə iqtisadiyyat sahəsindəki yüksək nailiyyətlər biri digərini tamamlamışdır. Daha dəqiq qiymətləndirməli olsaq, respublikada elm, ədəbiyyat və incəsənət istiqamətində qazanılan müvəffəqiyyətlər Azərbaycan xalqı üçün xüsusi əhəmiyyətə malik olmuşdur. Çünki sovet hakimiyyəti illərində istər-istəməz yüksək iqtisadi göstəricilərin bir hissəsi ittifaq büdcəsinə getdiyi halda, ədəbi-mədəni və elmi sərvətlər bütövlükdə mənsub olduğu xalqın mənəvi xəzinəsinin zənginləşdirilməsinə xidmət etmişdir.

Bu epoxada tarixi mövzuda yazılmış elmi və ədəbi-bədii əsərlər, çəkilmiş filmlər və rəsmlər, səhnəyə çıxarılmış dram əsərləri ölkəmizdə milli-mənəvi oyanışa böyük təkan vermişdir. Heydər Əliyevin siyasi iradəsi sayəsində Azərbaycan Respublikasının Konstitusiyasında Azərbaycan dilinin dövlət dili statusunda yer alması kimi parlaq hadisələr xalqda milli-mənəvi özünüdərk proseslərinin dərinləşdirilməsinə və milli iftixar hissinin qiymətləndirilməsinə səbəb olmuşdur. Görkəmli dövlət xadimi Heydər Əliyevin dövrün superdövləti olan SSRİ rəhbərliyində yüksək vəzifə tutması, böyük nüfuz qazanması, Sov.İKP MK-nın Siyasi Bürosunun üzvü səviyyəsində fəaliyyət göstərməsi sözün əsl mənasında xalqımızın qürur mənbəyinə çevrilən hadisələr olmuşdur.

Azərbaycanlı gənclərin Sovetlər İttifaqının ən qabaqcıl ali məktəblərində çoxlu sayda təhsil almalarının təmin edilməsi milli intibah baxımından bir neçə məsələnin həllində mühüm rol oynamışdır. İlk növbədə Azərbaycan Respublikasına gənc və yüksəkixtisaslı mütəxəssislərin böyük enerjisi daxil olmuşdur. Keçmiş sovet respublikalarında fərqli dilləri və mədəniyyətləri mənimsəmiş bu nəsil Azərbaycanda geniş dünyagörüşünün, fərqli yaradıcı baxışların əsasında formalaşmış yeni təfəkkürün inkişaf etdirilməsinə ciddi təsir göstərmişdir. Möhkəm milli təfəkkürün fərqli baxışlarla sintezi Azərbaycan insanının mənəvi dəyərləri qoruyub saxlamaq və daha da möhkəmləndirmək şərti ilə həm də həyata, proseslərə, inkişafa yeni gözlə baxmasını, ölkənin böyük gələcəyinin qurulmasında daha yaxından və fəal surətdə iştirak etməsini şərtləndirmişdir. Xüsusən mühəndis-texniki, kənd təsərrüfatı, fizika-riyaziyyat və informatika, avtomatlaşdırma və telemexanika ixtisasları üzrə ölkəyə qayıtmış gənc mütəxəssislərin gətirdiyi enerji respublikamızda yeni sənaye müəssisələrinin və aqrar sahənin qurulmasına, elmi-texniki tərəqqinin inkişafına böyük imkanlar açmışdır.

XX əsrin yetmiş-səksəninci illərinin "qızıl dövrü" çoxəsrlik Azərbaycan tarixinin xüsusi, özəl səhifələrinə çevrilmişdir. Məhz görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə yeni dövr Azərbaycan tarixinin qızıl səhifələri yazılmışdır. Həmin dövrün ədəbiyyatının "Biz elə ucaldıq, elə ucaldıq, Siyasi Bürodan gəldi səsimiz" kimi poetik qənaətləri xalqın cəmiyyətə açılmış qanadlarına dəstək vermişdir. Beləliklə, Azərbaycan Sovet Sosialist Respublikasında milli-mənəvi özünüdərk proseslərinin dərinləşdirilməsi və genişləndirilməsindən doğan reallıq milli iftixar hissinin daha da yüksəlməsinə lazımi şərait yaratmışdır. Deməli, Heydər Əliyevin simasında həqiqətən şəxsiyyət zamanı irəli aparmış, onu daha böyük gələcəyə doğru istiqamətləndirmişdir. Bu məqamda şəxsiyyət, onun qüdrəti və miqyası ölkəni irəli aparan ən böyük güc və qüvvət səviyyəsində dayanmış, əsas hərəkətverici qüvvə funksiyasını həyata keçirmişdir.

Azərbaycan xalqının tarixində ən keşməkeşli dövrlərdən olan birinci mərhələ ilə ikinci mərhələ arasındakı 1983-1993-cü illəri əhatə edən aralıq dövr də əslində Heydər Əliyevin adı ilə üzvi surətdə əlaqədardır. Birincisi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi məsul və mühüm bir vəzifədə çalışdığı illərdə Heydər Əliyev sovet dövlətinin əsas rəhbərlərindən biri kimi Azərbaycan Respublikasına ittifaq büdcəsindən daha çox vəsait ayrılmasına nail olmağı bacarmışdır.

Bundan başqa, Heydər Əliyevin sayəsində SSRİ nazirlikləri Azərbaycandakı həmkarlarına əlavə qapılar açmış, öz köməklərini əsirgəməmişlər. Eyni zamanda, əvvəllər hər hansı məsələni keçmiş ittifaq dövləti səviyyəsində həll etmək üçün aylarla Rusiya paytaxtına gedib-gəlməli olan Azərbaycan nazirliklərinin rəhbərləri Heydər Əliyevin Kremldəki mövqeyinin və nüfuzunun işığında bütün problemlərin ən qısa vaxtda və lazım olan səviyyədə həllinə nail olmuşlar.

İkincisi, Heydər Əliyev 1990-1993-cü illərdə Azərbaycanın ayrılmaz üzvi tərkib hissəsi Naxçıvanda yaşayarkən və Naxçıvan Muxtar Respublikası Ali Məclisinə rəhbərlik edərkən ölkəmizin bu tarixi ərazilərinin qorunub saxlanılmasını təmin etməklə əslində geniş mənada çətin şəraitdə vətənə, ölkəyə və xalqa xidmət göstərmişdir. Bu mərhələdə də Heydər Əliyevin simasında şəxsiyyət faktoru zaman amilinə qalib gəlmişdir.

Çətin blokada vəziyyətinə salınmış, Azərbaycanın paytaxtı ilə yalnız hava yolundan başqa daha heç bir əlaqəsi qalmamış, Ermənistan tərəfdən gələn elektrik enerjisi, qaz xətləri də kəsilmiş Naxçıvan Muxtar Respublikasında yaşamış Heydər Əliyevin bu regionun taleyindəki əvəzsiz rolunu və xidmətlərini heç nə ilə müqayisə etmək olmaz. Məhz görkəmli dövlət xadimi Heydər Əliyevin dünyada qəbul olunan adı və parlaq şəxsiyyəti, böyük nüfuzu Naxçıvan Muxtar Respublikasının xilasında misilsiz rol oynamışdır.

Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikası ali sovetlərinin deputatı seçilmiş Heydər Əliyevin 17 noyabr 1991-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında Azərbaycan Xalq Cümhuriyyəti dövrünün üçrəngli bayrağını Azərbaycanın dövlət bayrağı kimi qəbul etdirən qərarlar çıxarmağa nail olması zamanına görə təkrarsız qəhrəmanlıqdır. Hələ Sovetlər İttifaqının yıxılmasından on bir ay əvvəl SSRİ-nin dövlətçilik atributlarından rəsmi şəkildə imtina edilməsi və əvəzində həmin derjavanın düşmən elan etdiyi Azərbaycan Xalq Cünhuriyyətinin üçrəngli bayrağının dövlət bayrağı kimi qəbul olunması bu superdövlətin dağılmağa başlamasının start nöqtəsi olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclaslarında regionda Milli Ordunun yaradılması, Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün müəyyən olunması, 1990-cı ilin qanlı Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verilməsi və nəhayət, SSRİ-nin saxlanıb-saxlanılmaması haqqında referendumda muxtar respublikanın iştirak etməməsi haqqında qəbul edilmiş qərarlar ümumölkə miqyaslı ictimai-siyasi hadisələr olub, həm Azərbaycanda, həm də keçmiş Sovetlər İttifaqında milli azadlıq hərəkatının genişlənməsinə və qələbəsinin təmin edilməsinə, ölkəmizdə müstəqil dövlətin qurulub möhkəmləndirilməsinə görkəmli dövlət xadimi Heydər Əliyevin böyük xidmətləridir.

Nəhayət, Türkiyə Cümhuriyyətinin IX Prezidenti Süleyman Dəmirəlin özünün şəxsi təyyarəsində və geniş tərkibli nümayəndə heyəti ilə Naxçıvana gəlməsi, ümumxalq mitinqlərində blokada şəraitində olan muxtar respublikaya dəstək verməsi barədə qətiyyətli bəyanatlar səsləndirməsi və Sədərək-Dilucu Ümid körpüsünün açılmasında Heydər Əliyevlə birlikdə iştirak və çıxış etməsi Azərbaycan tarixinin nadir səhifələri olmaqla bərabər, həm də şəxsiyyət faktorunun gücünü və əhəmiyyətini təsəvvür etməyə imkan yaradan ibrətamiz hadisələrdir.

Bura eyni zamanda İran İslam Respublikasının Prezidenti Rəfsəncaninin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevi öz ölkəsinə dəvət etmək üçün şəxsi təyyarəsini Naxçıvan Hava Limanına göndərməsini də əlavə etsək, şəxsiyyət amilinin nəinki ölkə daxilində, hətta ölkələrarası münasibətlərdə də nə qədər böyük rola malik olduğunu başa düşmək mümkün olar.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi 1993-2003-cü illər şəxsiyyət və dövlət münasibətlərinin geniş imkanlarını və böyük əhəmiyyətini tam mənası ilə meydana qoymuşdur. Müstəqilliyin başlanğıc illərinin böyük çətinliklərini yaşamış, hakimiyyətdə olan "siyasilər"in səbatsızlığı ucbatından torpaqlarını itirmiş Azərbaycan xalqı 1993-cü ildə yenidən Azərbaycan rəhbərliyinə qayıtmış Heydər Əliyevin böyük sınaqlardan çıxmış əzəmətli şəxsiyyəti ətrafında sıx və möhkəm surətdə birləşmişdir. Dövlət və xalq birliyi, ulu öndərin şəxsiyyətinə sonsuz inam və böyük ehtiram müstəqil Azərbaycan dövlətinin bir çox taleyüklü məsələlərinin həll edilməsində əvəzsiz rol oynamışdır.

Heydər Əliyevin dönməz dövlətçilik mövqeyi, şəxsiyyətindəki qətiyyət, uzaqgörənlik və zəngin təcrübəsi onun gənc Azərbaycan Respublikasında xilaskarlıq missiyasını uğurla həyata keçirməsinə imkan yaratmışdır. Xalqın Heydər Əliyevin şəxsiyyətinə və siyasətinə sonsuz inamı dövlət başçısının çağırışlarının bütün ölkə boyu hər yerdə geniş əks-səda tapması, dönmədən yerinə yetirilməsi ilə nəticələnmişdir. Müstəqilliyin başlanğıc illərində ayrı-ayrı məkrli qüvvələr tərəfindən törədilmiş dövlət çevrilişi cəhdləri zamanı dövlət başçısı Heydər Əliyevin müraciətinə bütünlüklə qoşulan Azərbaycan xalqı sözün əsl mənasında şəxsiyyətin ətrafında birlik və mütəşəkkillik nümayiş etdirmişdir.

Məşhur "Xalq Heydər söyləyəcək, Heydər xalqım deyəcək" mahnısı Azərbaycan xalqının dahi rəhbərin şəxsiyyətinə və fəaliyyətinə sonsuz ehtiramının əks-sədası kimi meydana çıxmışdır.

Müstəqil Azərbaycan dövlətinin başlanğıc illərində ölkə böyük çətinliklərdən xilas olmaq uğrunda mübarizə apararkən xarici ölkələrin, beynəlxalq təşkilatların respublikamızla əməkdaşlıq üçün atdıqları addımların arxasında ilk növbədə dünyanın yaxından tanıdığı, qəbul etdiyi görkəmli dövlət xadimi Heydər Əliyevin şəxsiyyətinə möhkəm inam dayanmışdır.

Belə ki, 1994-cü ildə Bakı şəhərində məşhur "Əsrin müqaviləsi" imzalanarkən xarici səmayədarların Azərbaycan Respublikasının rəhbərinə olan dərin inamı həlledici rol oynamışdır. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərinin çəkilişinə başlanarkən də Heydər Əliyev faktoru əsas amil olmuşdur. Çünki həmin dövrdə Azərbaycanda hələ sabitlik tam bərqərar olmamış, iqtisadi vəziyyətdəki böhran aradan qaldırılmışdı. Lakin Azərbaycan xalqı ilə birlikdə xarici investorlar da möhkəm surətdə inanırdılar ki, ən qısa zaman çərçivəsində Heydər Əliyev bütün maneələri aşaraq Azərbaycanı ağır vəziyyətdən çıxaracaq, ölkədə sağlam həyat bərqərar olacaqdır.

Bu mənada XX əsrin doxsanıncı illərində dünyanın nüfuzlu şəxsiyyətlərinin, tanınmış liderlərinin görkəmli dövlət xadimi Heydər Əliyev haqqında aşağıdakı fikirlərini bir daha yada salmaq oxucular üçün də maraqlı olar:

*Mən Heydər Əliyevə böyük hörmət və ehtiram bəsləyirəm, onun siyasi fəaliyyətini və məharətini, uzaqgörənliyini yüksək qiymətləndirirəm.*

***Butros Qali,***
***BMT-nin keçmiş Baş katibi***

*Heydər Əliyevin şəksiz liderliyinə, cəsarətinə, misilsiz dünyagörüşünə və natiqlik istedadına valehəm.*

***Corc Buş,***
***Amerika Birləşmiş Ştatlarının keçmiş prezidenti***

*Mübaliğəsiz demək olar ki, Heydər Əliyev siyasət nəhəngi idi.*

***Vladimir Putin,***
***Rusiya Federasiyasının Prezidenti***

*Heydər Əliyev təkcə Azərbaycanın deyil, bütün türk dünyasının yetişdirmiş olduğu ən məşhur dövlət xadimlərindən biridir.*

***Süleyman Dəmirəl,***
***Türkiyə Cümhuriyyətinin IX Prezidenti***

*Qafqazın müstəqilliyi və azadlığı işində Heydər Əliyev fenomeninin nə qədər böyük rol oynadığını xalq hələ sonra biləcəkdir.*

***Eduard Şevardnadze,***
***Gürcüstan Respublikasının keçmiş prezidenti***

Görkəmli dövlət xadimi Heydər Əliyevin fenomenal şəxsiyyəti, dövlətçilik istedadı, qətiyyəti və uzaqgörən siyasəti haqqında Azərbaycan poeziyasında ifadə olunan misralar bütövlükdə xalqımızın özünün böyük lideri və xilaskarına bəslədiyi dərin ümumxalq məhəbbətinin ifadəsi idi. Azərbaycan ədəbiyyatı Heydər Əliyevin simasında xalqın və ölkənin dahi rəhbərini, istiqlaliyyət, müstəqillik və azərbaycançılıq idealını bacarıq və qətiyyətlə həyata keçirən qüdrətli liderini ilhamla vəsf etmiş, bu böyük şəxsiyyətin parlaq bədii obrazını yaratmışdır. Zəlimxan Yaqubun aşağıdakı şeiri Azərbaycan poeziyasının ulu öndər Heydər Əliyevə münasibətini ümumiləşmiş şəkildə ifadə edir:

*Qoy səsi guruldasın bu gün altı qitədə,*
*Odur məndən ötəri ATƏT də, BMT də.*
*Millətinə, xalqına birləş deyir, qalx deyir!*
*Öz haqqına güvənir, haqq danışır, haqq deyir.*
*Əlli milyona çatmış Azərbaycan Dünyası*
*Oxuyur bir himn kimi,*
*Bir səslə, bir avazla:*
*Heydər deyir, xalq deyir!*

Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycanda müstəqil dövlətçiliyin banisi və böyük qurucusudur. O, zamanın fövqünə qalxa bilən, onu ifadə edən və Azərbaycan cəmiyyətini bacarıqla və uzaqgörənliklə məqsədyönlü şəkildə istiqamətləndirən dahi liderdir.

Heydər Əliyev Azərbaycanda müstəqil dövlətçiliyi bütün mümkün təhlükələrdən xilas etmiş, ölkədə ictimai-siyasi sabitlik yaratmış və gələcək böyük inkişafın möhkəm təməllərini formalaşdırmışdır. Onun müstəqil Azərbaycana rəhbərlik etdiyi on il ərzində Azərbaycan normal inkişaf templərinə malik olan və dünyada öz sözü ilə seçilən müstəqil bir dövlət kimi qəbul olunmuşdur. Beləliklə, Heydər Əliyev 1969-cu ildən başlanan və müstəqillik illərində uğurla davam edən böyük və şanlı bir epoxa yaratmışdır. Heydər Əliyev epoxası Azərbaycanın çoxəsrlik tarixinin şərəfli bir mərhələsidir.

Cəmi 7 aydan sonra 50 illiyi tamam olacaq Heydər Əliyev epoxası - Azərbaycan xalqının xoşbəxtlik və azadlığının, inkişafı və müasirləşməsinin, özünü təsdiq etməsinin və möhkəmləndirilməsinin əsaslarını yaratmış, strategiya və taktikasını müəyyən etmiş böyük tarixi mərhələdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yorulmaz və məqsədyönlü fəaliyyəti ilə böyük sürətlə və hərtərəfli şəkildə inkişaf edən müstəqil dövlətimizin, xalqımızın inkişaf yollarına yeni, parlaq və qiymətli səhifələr əlavə edir.

Nəticədə bu gün Azərbaycan Respublikası bütün istiqamətlər üzrə inkişaf edib yeniləşir. XX əsrin yetmişinci illərində ölkəmizdə baş vermiş intibah hazırkı dövrdə müstəqilliyin açdığı üfüqlər sayəsində daha geniş şəkildə təzahür edir. İndi inkişaf baxımından Azərbaycan Respublikasının regionları ilə ölkəmizin paytaxtı arasında fərq aradan qalxmışdır. Aparılan düzgün siyasət sayəsində artıq iqtisadiyyatın bütün sahələrində - həm aqrar sahə, həm də sənaye üzrə böyük inkişaf göstəriciləri əldə olunmuşdur.

Davos Forumu, Dünya Bankı kimi ciddi beynəlxalq təşkilatlar Azərbaycanı müasir mərhələdə ən rəqabətədavamlı ölkələrdən biri hesab edirlər. Bu, Prezident İlham Əliyevin müstəqil Azərbaycana qazandırdığı mühüm nailiyyətdir. Azərbaycan Respublikasının nəqliyyat siyasəti və bu sahədə həyata keçirdiyi möhtəşəm layihələr qədim İpək yolunun bərpası olmaqla bərabər, həm də çoxşaxəli olub, Bakı-Tbilisi-Qars kimi Dəmir İpək yolunu və Şimal-Cənub, Şərq-Qərb magistrallarını əhatə etməklə qitələr və ölkələrlə Azərbaycanı əlaqələndirməklə ölkəmizə böyük iqtisadi mənfəət gətirir.

Dövlət başçımızın apardığı turizm və sadələşdirilmiş viza siyasəti Azərbaycanın həyatında yeni bir istiqamətin sürətli inkişafına təminat verir. Prezident İlham Əliyevin yürütdüyü düşünülmüş siyasətin işığında ölkəmizdə elm, təhsil, ədəbiyyat və incəsənət inkişaf etdirilir, milli-mənəvi dəyərlər ön mövqeyə çəkilir.

Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi şərəfli 15 illik yeni mərhələ siyasi varisliklə müasirləşdirmənin sintezi və vəhdətinə əsaslanan və yeniləşən zamanın daxili məntiqindən doğan ictimai-siyasi, iqtisadi-mədəni prosesləri bütün yönləri ilə irəli aparan xüsusi bir tarixi dövrdür.

Bu mənada Prezident İlham Əliyev - dünyada dəyişən və inkişaf edən yeni zamanın yeni lideridir.

İlham Əliyev yeniləşmiş Azərbaycan adlı inkişaf etmiş bir ölkənin bacarıqlı və qüdrətli rəhbəridir.

Dünyanın digər tanınmış görkəmli dövlət xadimləri sırasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xüsusi və görkəmli yeri var.

Beynəlxalq aləmdə sülh və təhlükəsizlik, multikulturalizm və tolerantlıq, qarşılıqlı əməkdaşlıq və həmrəylik uğrunda aparılan mübarizədə Prezident İlham Əliyev söz sahibi olan liderdir.

Azərbaycan Respublikasının dövlət başçısının sözü və bəyanatı, ölkəmizdə olduğu kimi, dünyada da haqq səsi miqyasında eşidilir və qəbul olunur.

Xalqından qüvvət alan, ölkəsinin və dünyanın gələcək inkişaf yollarını aydın surətdə görən və millətini böyük gələcəyə doğru səfərbər edən Prezident İlham Əliyev müstəqil Azərbaycanı düşünülmüş şəkildə və uğurla zamandan-zamana aparır.

Müasir inkişafın İlham Əliyev epoxası - Azərbaycanın yeni tipli intibah mərhələsi deməkdir.

*İlham Əliyevin müəyyən etdiyi Heydər Əliyev yolu - müstəqil Azərbaycan dövlətinin və xalqımızın əbədiyyət yoludur. Prezident İlham Əliyev həmin parlaq yolun və böyük gələcəyin qüdrətli təminatçısı, mahir sükançısıdır. Aparılan məqsədyönlü siyasət müstəqil Azərbaycan dövlətini yeni və daha geniş magistrallara çıxarmağa uğurla xidmət edir.*

***İsa HƏBİBBƏYLİ,***
***AMEA-nın vitse-prezidenti, Milli Məclisin Elm və təhsil komitəsinin sədri, akademik***



# Dünyanın ən böyük azərbaycanlısı

Tarix - onu yaradanları yaşadır, dünəndən bugünə, bugündən sabaha aparır, gələcək nəsillərə çatdırır, daim uca zirvələrdə saxlayır. Ulu öndər Heydər Əliyev də belə unudulmaz və həmişəyaşar, dahi və yaradıcı şəxsiyyətlərdəndir. Onun əsəri olan müstəqil Azərbaycan dövləti müasir dünya xəritəsində özünə layiqli yer tutaraq adını bəşəriyyət tarixinə əbədi həkk etdirmişdir. Hələ sağlığında ulu öndər özünün tarixdəki yerini müdrikcəsinə müəyyənləşdirərək demişdir: "Nə qədər ki Azərbaycan var, mən də varam! Mən isə Azərbaycanda həmişə olacağam!" Vəfatından ötən 15 il ərzində biz onun varlığını, dövlətimiz və xalqımızla birlikdə olduğunu daim hiss etmişik və bu, bütün zamanlarda da belə olacaqdır.

Xəyalən ulu öndərin əbədiyyətə qovuşduğu o məşum qış gününə qayıdır, ölçüyəgəlməz, əvəzsiz itkinin təkcə Azərbaycanda deyil, həm də bütün dünyada necə dərin kədər doğurduğunu xatırlayıram. Həmin dövrün ən məşhur və nüfuzlu siyasətçiləri ümummilli lideri Azərbaycanı çiçəklənmə yoluna gətirib çıxarmış, cəsarətli, müdrik, qətiyyətli, uzun müddət ərzində Cənubi Qafqazda söz sahibi olan qeyri-adi şəxsiyyət kimi səciyyələndirir, onun vəfatı xəbərini təəssüf və kədər hissi ilə qarşıladıqlarını bildirirdilər.

Rusiya Prezidenti Vladimir Putin dövrün görkəmli siyasətçisi və dövlət xadimi, Rusiyada böyük nüfuzu olan, ölkələrimiz arasında mehriban dostluq və qardaşlıq münasibətlərinin formalaşmasına və inkişafına əvəzsiz töhfə verən Heydər Əliyevin vəfatından ürəkdən kədərləndiyini bildirməklə yanaşı, ulu öndərin dəfn mərasimində iştirak etmək üçün şəxsən özü yüz nəfərlik nümayəndə heyəti ilə Bakıya gəlmişdi.

Amerika Birləşmiş Ştatlarının ovaxtkı prezidenti Corc Buş başsağlığı teleqramında yazırdı: "Heydər Əliyev Cənubi Qafqazda uzun müddət ərzində ən əsas şəxsiyyət olmuşdur. Amerika Birləşmiş Ştatları və Azərbaycanın bəhrələndiyi dostluq əlaqələrinin qurulmasında və Azərbaycanın müstəqilliyinin qorunmasında onun şəxsi səyləri həyati əhəmiyyət daşımışdır... Dağlıq Qarabağ faciəsinin sülh danışıqları vasitəsilə ədalətli və uzunmüddətli həllinə nail olmaq sahəsində onun nümayiş etdirdiyi qətiyyət regionda sülh və sabitliyin saxlanmasında mühüm əhəmiyyət kəsb etmişdir. Eyni zamanda, onun mövqeyi və göstərdiyi səylər Azərbaycanın iqtisadi inkişafını möhkəmləndirən böyük həcmli xarici sərmayələrin cəlb olunmasında əsas rol oynamışdır. Bu nailiyyətlər milyonlarla azərbaycanlının həyatını yaxşılaşdırmış və Azərbaycanın XXI əsrə müasir dövlət kimi daxil olmasına imkan yaratmışdır".

Fransa Respublikasının sabiq prezidenti Jak Şirak isə dostluq telləri ilə bağlandığı Heydər Əliyevin vəfatı xəbərini böyük sarsıntı və kədər hissi ilə aldığını vurğulayaraq başsağlığı verir, ulu öndərin fəaliyyətini yüksək qiymətləndirməklə yanaşı, cənab Prezident İlham Əliyevə xitabən deyirdi: "Atanızın yolunun davam etdirilməsində böyük cağırışlarla üzləşəcəksiniz. Mən xüsusilə də Prezident Heydər Əliyevin hakimiyyətə gəldikdən sonra cəsarətlə həyata keçirdiyi siyasi islahatları nəzərdə tuturam. Şübhə etmirəm ki, Siz var qüvvənizlə onun yolunu davam etdirəcəksiniz və Azərbaycanı demokratiya və hüquqi dövlət yolu ilə irəli aparacaqsınız".

...O günlərdə xalqımız dərin kədər içərisində idi: milyonlarla həmvətənimiz əsl millət atası olan ulu öndərə Azərbaycanda və onun hüdudlarından kənarda yas saxlayır, onun parlaq xatirəsinə ehtiramlarını ifadə edirdilər. Təkcə dəfn mərasimində və ondan sonrakı bir neçə gündə 4 milyona yaxın insan Fəxri xiyabana gələrək Heydər Əliyevin məzarını ziyarət etmişdi. Ötən 15 ildə bu müqəddəs ziyarətgaha üz tutub ulu öndərə sonsuz sevgisini və sədaqətini nümayiş etdirənlərin isə, yəqin ki, sayı-hesabı yoxdur.

Heydər Əliyevə bu böyük və tükənməz ehtiramın səbəbləri öz vətənini sevən, öz müstəqil dövlətçiliyinə qəlbən bağlı olan hər bir azərbaycanlıya yaxşı məlumdur. Mən dəfələrlə bu barədə öz fikirlərimi yazmış, ulu öndərin şəxsiyyəti, müdrik və möhtəşəm siyasəti, misilsiz quruculuq fəaliyyəti haqqında dövri mətbuatda dərc olunmuş məqalələrimi ayrıca bir kitabda toplayaraq "Qürur doğuran illər" adlandırmış, ötən il nəşr etdirmişəm. Lakin Heydər Əliyev irsi o qədər zəngindir ki, məncə, onu tam öyrənməyə, ayrı-ayrı xüsusiyyətlərini araşdırıb əxz etməyə bir insan ömrü yetməz... Müstəqil Azərbaycan onun müəyyənləşdirdiyi yolla inamla irəliyə addımladıqca biz bu irsin siqlətini və əhəmiyyətini daha dərindən dərk edir, ölkəmizin dinamik və davamlı inkişafının məhz Heydər Əliyev ideyalarından qaynaqlandığını görür və hədsiz qürur hissi keçiririk.

Otuz ildən artıq bir dövrdə Azərbaycanın tarixi taleyi Heydər Əliyevin adı ilə qırılmaz tellərlə bağlı olmuş, bu illər ərzində xalqımızın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəliş məhz onun fəaliyyəti nəticəsində mümkünləşmişdir. Böyük siyasi və dövlət xadimi, xalqın şəksiz lideri olaraq hələ sağlığında canlı əfsanəyə çevrilən ulu öndər Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxarmışdır.

Hələ sovet hakimiyyəti dövründə Azərbaycanın gələcəyini düşünərək göstərdiyi müdriklik və uzaqgörənlik ulu öndərin ümumxalq məhəbbəti qazanması üçün ən mühüm amil kimi dəyərləndirilir. Həmin dövrdə Heydər Əliyev milli inkişaf üçün mümkünsüz sayıla biləcək addımlar atmış, ən başlıcası, doğma xalqının gücünü, potensialını ortaya qoymuş, onun müstəqil yaşamaq imkanlarını sübuta yetirmiş, bununla yanaşı, milli mənəvi dəyərlərinin qorunmasını və zənginləşməsini təmin etmişdir. Sovet totalitar rejiminin sərt nəzarəti altında öz millətinin ehtiyaclarını mərkəzi hakimiyyətin tələbləri ilə əlaqələndirmək və xalqın azadlıq ruhunu dirçəltmək fenomenal bir xüsusiyyət idi... Ulu öndər bunu bacarmışdı!

Bu da bir həqiqətdir ki, hətta sovet hökuməti özü belə Heydər Əliyev fenomenini ən yüksək səviyyədə qiymətləndirmişdir. Ulu öndər sovet dövlətinin ən ali mükafatlarına layiq görülmüş, iki dəfə Sosialist Əməyi Qəhrəmanı adını almışdır. Bundan başqa, bir çox xarici dövlətlərin orden və medalları ilə təltif olunmuş, beynəlxalq mükafatlara, müxtəlif ölkələrin universitetlərinin fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür.

Heydər Əliyev, həqiqətən, qəhrəman idi. Bunu təkcə sovet dövründəki fəaliyyəti ilə deyil, sonralar siyasi təqibə məruz qalanda, həyatın amansız sınaqları ilə üzləşəndə bir daha sübuta yetirdi. Yüksək dövlət vəzifəsindən istefa verdikdən sonra Qorbaçovun komandasından hər an hər cür təhlükə gözlənilirdi. Üstəlik, Azərbaycanın ovaxtkı rəhbərləri də namərdlik edirdilər, hətta ulu öndərə Bakıda qalmağa, paytaxtda yaşamağa belə imkan vermirdilər. Heydər Əliyev özünün mənəvi gücü və cəsarəti ilə bütün çətinliklərə hünərlə sinə gərdi, doğma Naxçıvana əsl qəhrəman kimi qayıtdı, muxtar respublikanı və onun əhalisini təcavüzkar Ermənistanın məkrli niyyətlərindən qorudu. Həmin vaxtlarda Bakıda hakimiyyət başında olanlar Naxçıvana qarşı ayrı-seçkilik siyasəti yeridir, bu torpağın müdafiəsinə, buradakı insanların həyatına, yaşayışına laqeyd münasibət göstərirdilər. Heydər Əliyevin gəlişi Naxçıvan üçün, naxçıvanlılar üçün tarixi bir hadisə oldu. Ulu öndər doğma yurda işıq, hərarət, ruzi gətirdi. Muxtar respublikanı demokratiyanın, haqqın-ədalətin beşiyinə, milli azadlıq və qurtuluş uğrunda mübarizə məkanına çevirdi. Nəqliyyat, enerji blokadası və rəsmi Bakının biganəliyi şəraitində çox çətin vəziyyətlə üzləşmiş Naxçıvan məhz Heydər Əliyevin şəxsi nüfuzu, müdrik siyasəti və diplomatik məharəti sayəsində qonşu Türkiyə və İrandan hərtərəfli kömək ala bildi. İranla sərhədyanı ticarət əlaqələrinin yaradılması, Naxçıvanı Türkiyə ilə birləşdirən Ümid körpüsünün istifadəyə verilməsi, hər iki ölkədən elektrik enerjisi almaq üçün xətlərin çəkilməsi muxtar respublikanı sosial-iqtisadi böhrandan çıxardı. Heydər Əliyev humanitar yardımla bağlı Qərb dövlətləri ilə də danışıqlar aparırdı. Belə ki, ABŞ-ın o vaxt yeni seçilən prezidenti Bill Klintona səmimi teleqram göndərmiş, bu teleqrama eyni dərəcədə səmimi cavab almış, sonra isə ABŞ-dan humanitar yardım gətirən "Boeing" təyyarəsi Naxçıvan Hava Limanında yerə enmişdi. Onu da xatırlayıram ki, hətta bu yardımın Ermənistan üzərindən çatdırılmaması ilə bağlı əvvəlcədən ABŞ rəhbərliyinə müraciət etmişdi və demişdi ki, oradan gələn ərzaq bizə lazım deyil.

Bununla yanaşı, 1992-ci ilin mayında Şuşa və Laçını ələ keçirən ermənilər Naxçıvana təcavüzü daha da gücləndirərək, xüsusən Sədərəyin bəzi ərazilərinə yiyələnmək istəyirdilər. Heydər Əliyevin təşəbbüsü ilə muxtar respublika parlamenti təcavüzün dayandırılması üçün Türkiyədən kömək göstərilməsini xahiş etdi. Türkiyə hökumətinin 1921-ci il Qars müqaviləsinə istinadla Naxçıvanın muxtariyyətinin təminatçısı olduğu barədə bəyanat verməsi dünyanın 57 dövlətini Ermənistanın təcavüzkar hərəkətini pisləməsinə səbəb oldu və təcavüzün qarşısına sədd çəkdi.

Ulu öndərin Naxçıvana rəhbərliyi dövrü ilə bağlı başqa bir maraqlı hadisə də yaddaşlarda yaşayır. Bu bölgədə qış çox sərt keçir. Blokadanın naxçıvanlıları tamamilə istilikdən məhrum etdiyi bir vaxtda Heydər Əliyev muxtar respublikanın paytaxtının mərkəzində yerləşən Böyük bağdakı ağacların budanmasının onların məhvinə səbəb olub-olmayacağı barədə mütəxəssislərin rəyini öyrənmiş və bunun bağa ziyan vurmayacağını dəqiqləşdirdikdən sonra budama aparılmasına və kəsilən qol-budaqlardan odun tədarük edilməsinə razılıq vermişdi. Həmin odundan hər ailəyə pay ayrılmışdı ki, qışdan çıxa bilsinlər.

Naxçıvanı qorumaqla, muxtar respublika əhalisinin qayğısına qalmaqla yanaşı, Heydər Əliyev buradakı siyasi fəaliyyəti dövründə müstəqil Azərbaycan dövlətçiliyi üçün çox mühüm işlər görmüşdür. Hələ 1990-cı ildə Naxçıvanda sovet idarəçiliyinin ləğvində, muxtar respublikanın adından "sovet" və "sosialist" sözlərinin çıxarılmasında, Ali Sovetin adının dəyişdirilərək Ali Məclis adlandırılmasında, həmin il noyabrın 17-də milli istiqlalımızın rəmzi olan üçrəngli bayrağın Naxçıvan Ali Məclisinə gətirilməsində və beləliklə, dövlətçilik atributu kimi bərpasında ulu öndərin müstəsna xidmətləri olmuşdur. Məhz Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Ali Məclisi Qarabağda vəziyyət, Bakıda fövqəladə vəziyyətin aradan götürülməsi, habelə 20 Yanvar hadisələrinə siyasi qiymət verilməsi haqqında qərarlar qəbul etdi. Muxtar respublika ərazisində kommunist partiyasının fəaliyyətinin dayandırılması, Naxçıvan əhalisinin SSRİ-nin saxlanması barədə referendumda iştirakdan imtina etməsi, 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan olunması kimi siyasi aksiyalar həyata keçirildi... Bunlar müstəqil dövlətçiliyimiz üçün misilsiz tarixi hadisələrdir.

Məhz Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyi dövrdə Heydər Əliyev Azərbaycanın müstəqil dövlətçiliyinin dayağı olan güclü və monolit siyasi təşkilatın - Yeni Azərbaycan Partiyasının əsasını qoymuş, onu mükəmməl və yenilməz ideya ilə silahlandırmışdır. Partiyamızın ötən il keçirilən 25 illik yubileyində möhtərəm Prezident İlham Əliyev bu barədə demişdir: *"İyirmi beş il əvvəl ulu öndər Heydər Əliyevin sədrliyi ilə Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirilmişdir. Bu, böyük tarixi hadisə idi. Ondan təqribən bir ay əvvəl bir qrup vətənpərvər insan - məşhur "91-lər" Heydər Əliyevə müraciət ünvanlamışdılar. Ulu öndər müraciətə müsbət cavab verərək yeni yaradılacaq partiyaya rəhbərlik etməyə hazır olduğunu bildirmişdir və partiyanın təsis konfransının keçirilməsi haqqında qərar qəbul edilmişdir. Təbii ki, təsis konfransı Bakıda keçirilməli idi. Ancaq o vaxt Azərbaycanda hakimiyyəti qanunsuz şəkildə zəbt etmiş AXC-Müsavat hakimiyyəti buna imkan vermədi. Baxın, özünü demokrat adlandıran dairələr, hakimiyyət imkan vermədi ki, Yeni Azərbaycan Partiyasının təsis konfransı Bakı şəhərində keçirilsin. Belə olan halda 500-dən çox nümayəndə, bütün bölgələri təmsil edən vətəndaşlar Naxçıvana gəldilər və ulu öndərin rəhbərliyi ilə partiyamızın təsis konfransı keçirildi".*

Bəli, partiyamız ağır siyasi şərtlər altında yaradıldı, bu gün də özlərini "demokrat" adlandırmaqdan utanıb həya etməyən şəxslər hər vəchlə Heydər Əliyevi respublikanın siyasi həyatından təcrid etməyə çalışırdılar. Lakin ulu öndərin Azərbaycanda rəhbərliyə gəlməsi, müstəqil dövlətçiliyimizi xilas etməsi, ölkəni xaosdan qurtarması, vətəndaş qarşıdurmasına son qoyması xalqın mütləq əksəriyyətinin arzusu və istəyi idi. Partiyamızın yarandığı vaxtlarda Azərbaycanda böhran daha da dərinləşmişdi, Ermənistanın hərbi təcavüzü, torpaqlarımızın işğalı davam edirdi. İqtidarda olan AXC-Müsavat cütlüyü nəinki bu prosesin qarşısını ala bilmir, dövləti idarə etməyi belə bacarmırdı. 1993-cü ilin yayında Gəncədə qardaş qanı axıdılmışdı. Qarabağ itirilməklə yanaşı, respublikanın şimalında və cənubunda yeni separatçılıq ocaqları yaranırdı. Həmin ilin 15 iyunu müstəqil Azərbaycan üçün dönüş nöqtəsi oldu: xalqın təkidli tələbi ilə siyasi rəhbərliyə dəvət edilən Heydər Əliyev Ali Sovetin sədri seçildi və ertəsi gün Əbülfəz Elçibəyin Bakıdan qaçması nəticəsində dövlətçiliyimizin qurtuluşu naminə bütün məsuliyyəti öz üzərinə götürmək məcburiyyətində qaldı. Həmin dövrü xatırladıqca ulu öndərin hünərinə, cəsarətinə və qəhrəmanlığına bir daha heyran qalır, xalqımıza məhz belə səbatlı və yenilməz lider bəxş etdiyinə görə Tanrıya şükür edirsən! Ulu öndər yenilməz liderliyini, xalqın hakimiyyətini qorumaq və möhkəmləndirmək bacarığını Prezident kimi müstəqil Azərbaycanda həqiqi dövlət quruculuğuna başladığı ilk illərdə qətiyyətlə sübuta yetirdi. Dövlət çevrilişi cəhdlərinin qarşısını aldı, ölkəni bürümüş cinayətkarlığa qarşı kəskin mübarizəni təşkil etdi, erməni təcavüzünü dayandırmağa, uğurlu əks-hücum əməliyyatı aparmağa və respublikanı böhrandan çıxarmağa imkan yaradan atəşkəsə nail oldu.

Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə xalqımızın və dövlətimizin qazandığı uğur və nailiyyətlər haqqında cild-cild əsərlər yazılıb və bundan sonra da yazılacaqdır. Mən həmin dövrü özünəməxsus güclü məntiqlə yığcam ifadə edən möhtərəm Prezident, partiyamızın sədri cənab İlham Əliyevin sözləri ilə səciyyələndirmək istərdim: *"1993-2003-cü illər tariximizdə sabitlik, islahatlar və inkişaf illəri kimi qalacaq. Məhz o illərdə dövlətçiliyimizin əsasları qoyuldu. O illərdə bizim milli ideologiyamız - azərbaycançılıq ideologiyası təqdim edildi və xalq tərəfindən bəyənildi. O illərdə Azərbaycan beynəlxalq təcriddən çıxa və Dağlıq Qarabağ həqiqətlərini dünya ictimaiyyətinə çatdıra bilmişdir. Biz beynəlxalq aləmdə fəal siyasət apararaq Azərbaycanı tanıtmaq istiqamətində böyük işlər görə bildik. İqtisadi islahatlar, onların təməli məhz o illərdə qoyulmuşdu. O vaxt ölkə iqtisadiyyatının inkişafı üçün xarici sərmayənin cəlb edilməsi əsas şərt idi. Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan bunu da bacardı. O illərdə Azərbaycana cəlb olunan xarici sərmayə, demək olar ki, həmin dövrdə və hətta bu gün də ölkəmizin iqtisadi inkişafını şərtləndirən əsas amillərdən biridir. Bir sözlə, 1993-2003-cü illərdə Azərbaycanda aparılmış böyük işlər ölkəmizi gücləndirdi. Azərbaycan bütün çətin sınaqlardan şərəflə çıxa bilmişdir və bugünkü sürətli inkişafın da təməli o illərdə qoyulmuşdur".*

Ulu öndərin xalqımız və dövlətimiz qarşısında müstəsna xidmətlərindən biri də onun yolunu davam etdirməyə, ideyalarını daha da zənginləşdirib həyata keçirməyə qadir olan cənab İlham Əliyev kimi yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar siyasi lider yetişdirməsidir. Heydər Əliyev inanırdı ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası xalqın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcək, onun axıra çatdıra bilmədiyi taleyüklü məsələləri, işləri başa çatdıra biləcək. Ulu öndərin özü qədər inandığı və gələcəyinə böyük ümidlər bəslədiyi cənab İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi 15 ildə respublikamız bütün sahələrdə özünün dinamik inkişafı ilə dünya birliyinin diqqət mərkəzində olmuşdur və bu şərəfli tarixin hər gün yeni, daha parlaq səhifələri yazılır. Bu illər ərzində iqtisadi inkişaf baxımından Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə olmamışdır. Çox hörmətli akademik Ramiz Mehdiyevin qeyd etdiyi kimi, İlham Əliyev dövlətimizin möhkəmləndirilməsi, müstəqilliyimizin dönməzliyinin təmin olunması kimi məsul bir vəzifəni yerinə yetirməklə həm də milli şüurumuzun inkişafı və cəmiyyətimizin müasirləşməsi üçün yorulmadan səy göstərir. O, hər bir situasiya üçün düzgün qərar verərək onların həyata keçirilməsinə nail olur. İlham Əliyev siyasi lider kimi yeni dövrün tanınmış şəxsiyyətidir. Cənab Prezidentin qazandığı uğurlar xalqımıza böyük ümidlər verir, gələcəyə geniş yollar açır.

Azərbaycanın bugünkü dinamik sosial-iqtisadi inkişafının mühüm təməlinə çevilən "Əsrin müqaviləsi"ni ulu öndər dövlət müstəqilliyinin yeni bərpa edildiyi, ölkənin hələ ciddi sınaqlar qarşısında olduğu dövrdə imzalamışdı. Nəinki Azərbaycanın tərəqqisi üçün geniş imkanlar açan, həm də bölgəmizin və ümumən Avropanın enerji təhlükəsizliyində müstəsna rol oynayan bu sazişin müddətinin 2050-ci ilə uzadılmasına nail olan cənab Prezident İlham Əliyev möhtəşəm bir tarix yazdı. Ötən ilin sentyabrında "Azəri-Çıraq-Günəşli" neft yatağının işlənilməsi üzrə imzalanmış yeni saziş ölkəmiz üçün əvvəlkindən də əlverişlidir. Dövlət başçısının qeyd etdiyi kimi, sazişin şərtləri göstərir ki, Azərbaycanın gələcək inkişafı, maliyyə imkanlarımızın genişləndirilməsi üçün onun çox böyük əhəmiyyəti var.

Bu il aprelin 11-də ölkəmizdə növbəti prezident seçkiləri keçirildi və cənab İlham Əliyev qarşıdakı yeddi il müddətinə bu ali dövlət vəzifəsində fəaliyyətini davam etdirmək üçün yenidən xalqımızın etimadını qazandı. Onun prezidentliyə namizədliyi Yeni Azərbaycan Partiyasının VI qurultayında irəli sürülərkən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin sakini Oqtay Həziyevin ilk çıxış etməsi təsadüfi deyildi. Bu kənd Qarabağın işğaldan yeni azad edilmiş və məcburi köçkün sakinləri doğma yurda qayıtmış yaşayış məntəqəsidir. 2016-cı ilin aprelində ordumuzun şücaəti sayəsində Lələtəpə yüksəkliyinin geri qaytarılması nəticəsində kəndin təhlükəsizliyi təmin olunmuş və cənab Prezidentin tapşırığı ilə burada yeni qəsəbə salınmışdır. Həmin vaxt Ali Baş Komandan kimi cənab İlham Əliyevin rəhbərliyi ilə ordumuz Ermənistanın işğalçı ordusuna elə bir zərbə vurmuşdur ki, təcavüzkar ölkə hələ də bu ağır məğlubiyyətin təsiri altından çıxa bilmir.

Ulu öndərin yolunun davamçısı kimi cənab Prezident İlham Əliyevin xalqımızın yeganə ağrılı problemi olan Qarabağ münaqişəsinin həlli istiqamətində apardığı qətiyyətli və prinsipial siyasət öz nəticəsini verir. Heydər Əliyev Qarabağın azadlığını arzulayırdı və bunun üçün zəruri təminatlar yaradırdı. Onun son görüşünün tezliklə ordumuzun zabit korpusunu möhkəmləndirəcək gənc hərbçilərlə olması da məhz bunu təsdiq edir. Həmin görüşdə iştirak etmiş kursantların əksəriyyəti indi düşməndən qat-qat güclü olan ordumuzun yüksək rütbəli komandirləridir. Ulu öndər inanırdı ki, Azərbaycanın zəbt olunmuş torpaqlarının erməni işğalçılarından azad edilməsi üçün bizim daha güclü zabit heyətimiz olacaqdır və onun inamı doğrulmuşdur. Son 15 ildə cənab Prezident İlham Əliyevin apadığı məqsədyönlü, uğurlu hərbi quruculuq nəticəsində Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasında yer tutmağa nail olmuşdur.

Heydər Əliyev ideyalarının gerçəkləşməsində onun şərəfli adını daşıyan fondun, bu fonda rəhbərlik edən Birinci vitse-prezident Mehriban xanım Əliyevanın çox böyük rolu vardır. Mehriban xanımın çoxşaxəli ictimai-siyasi fəaliyyəti xalqımızın hədsiz rəğbətini və dəstəyini qazanmaqla yanaşı dünyada da yüksək dəyərləndirilir. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyeva müasir Azərbaycan gəncliyinin lideri kimi müstəqil dövlətçiliyimizn inkişafına, ölkəmizlə bağlı həqiqətlərin dünyada təbliğinə layiqli töhfələr verir. Həm milli mədəniyyətimizin, həm xalqımızın əxlaqi-mənəvi dəyərlərinin təbliğində, həm də ölkəmizin dolğun müsbət imicinin formalaşmasında cənab Prezident İlham Əliyevin ailəsinin hər bir üzvünün onunla həmrəy, həmfikir olması ulu öndərin həmişəyaşar ideyalarının ən parlaq şəkildə gerçəkləşməsidir. Prezident və Ali Baş Komandan kimi cənab İlham Əliyev Azərbaycanın əmin-amanlığını qoruyur, ölkənin dinamik inkişafını, xalqın rifahını təmin edir, torpaqlarımızı işğaldan azad etməyə hər an hazır olan ordumuzun gücünü daim artırır, döyüş qabiliyyətini yüksəldir.

*...Xalqımızın dahi oğlu Heydər Əliyevin vəfatı ilə əlaqədar vaxtilə mətbuatda dərc olunmuş nekroloqda çox haqlı olaraq deyilirdi ki, onun fəaliyyəti də, şəxsiyyəti də Azərbaycan tarixinin ayrılmaz bir hissəsini təşkil edir və hər bir azərbaycanlının taleyində Heydər Əliyev dühasının bir zərrəsi vardır. Yaddaşıma həmişəlik həkk olunmuş bu unudulmaz sözlər xalqımızın indiki və gələcək nəsillərinin ulu öndərimizlə, onun mənəvi varlığı ilə qırılmaz bağlılığını çox düzgün ifadə edir. Biz çox xoşbəxtik ki, Heydər Əliyevin yolu ilə addımlayırıq və Azərbaycanı daha yüksək zirvələrə doğru aparan bu yolun cənab İlham Əliyev kimi davamçısı var. Ulu öndərin xatirəsinə ən böyük abidə də elə çiçəklənən, güclənən, qüdrətlənən müstəqil Azərbaycandır!*

**Tağı ƏHMƏDOV,**
**YAP Yasamal rayon təşkilatının sədri**

# Azərbaycanın özü qədər əbədi

## Yeni Azərbaycan Partiyasının nümayəndələri Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət ediblər

Dekabrın 11-də Yeni Azərbaycan Partiyasının nümayəndələri müasir müstəqil dövlətimizin memarı və qurucusu, xalqımızın ulu öndəri Heydər Əliyevin vəfatının 15-ci ildönümü ilə əlaqədar Fəxri xiyabanda ümummilli liderin xatirəsini yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar. AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Tarixin yetirdiyi nadir şəxsiyyətlərdən olan ümummilli lider Heydər Əliyevin parlaq siyasi zəkası sayəsində iki əsrin qovuşuğunda Azərbaycan öz milli-mənəvi dəyərlərini qoruyaraq üçüncü minilliyə inamla qədəm qoyub.



Ulu öndər Heydər Əliyevin zəkası bütün maneələri aşaraq və qarşıya çıxan çətinliklərə baxmayaraq, Azərbaycanı tənəzzüldən, hərcmərclikdən, vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsindən uğurla çıxarıb ona həm bölgədə, həm də dünyada layiqli yer qazandırıb.

Əbədiyaşar liderimiz Heydər Əliyev olduqca mürəkkəb bir dövrdə xalqın xidmətində dayandığını nümayiş etdirməklə yanaşı, həm də Azərbaycan Respublikasının Konstitusiyası və qanunvericiliyi çərçivəsində, özünün Nizamnaməsi və Proqramı əsasında fəaliyyət göstərən, öz sıralarında ölkəmizdə hüquqi dövlət, sabit və sosialyönümlü iqtisadiyyat, vətəndaş cəmiyyəti qurmaq ideyalarını qəbul edən vətəndaşları birləşdirən sağ mərkəzyönümlü siyasi partiya olan Yeni Azərbaycan Partiyasının (YAP) banisidir.

Ümummilli liderin yaratdığı Yeni Azərbaycan Partiyası bu gün sıralarında 700 mindən çox üzvü birləşdirərək ölkənin avanqard siyasi qüvvəsi kimi respublikamızda YAP-ın sədri, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən nəhəng quruculuq proseslərinin önündə gedir.

## Ağsaqqallar Şurasının üzvləri ulu öndər Heydər Əliyevin məzarını ziyarət ediblər



Respublika Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərov, rayon və şəhər təşkilatlarının nümayəndələri və şura üzvləri ulu öndərin anım günü ilə əlaqədar dekabrın 11-də Fəxri xiyabana gələrək müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə də tər çiçəklər düzülüb.

Həmçinin görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin də xatirələri anılıb, məzarları üzərinə güllər qoyulub.

***AZƏRTAC***

## Dövlət Təhlükəsizliyi Xidmətinin şəxsi heyəti ulu öndər Heydər Əliyevin xatirəsini yad edib











Dekabrın 11-də Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) şəxsi heyəti Fəxri xiyabana gələrək ulu öndər Heydər Əliyevin xatirəsini yad edib. AZƏRTAC xəbər verir ki, Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Mədət Quliyev, Xidmətin əməkdaşları, təhlükəsizlik orqanlarının veteranları, DTX-nin N saylı hərbi hissəsinin zabit və əsgərləri Fəxri xiyabanda ulu öndərin məzarı önünə əklil qoydular, xatirəsinə ehtiramlarını bildirdilər.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da xatirəsi yad olundu.

Ümummilli lider Heydər Əliyevin Azərbaycan təhlükəsizlik orqanlarının inkişafında da mühüm xidmətləri var. Hələ sovet dövründə bu xidmətdə milliləşmə siyasətinin aparılmasında dahi şəxsiyyətin rolu böyükdür. Ulu öndərin əsasını qoyduğu şanlı məktəbin ənənələrini qürur və şərəflə yaşadan DTX-nin şəxsi heyəti müstəqilliyimizin və dövlətçiliyimizin etibarlı qorunması işini əzmlə davam etdirir və Xidmətin hər bir əməkdaşı bununla fəxr edir. Bu gün xalqımız qəti əmindir ki, Heydər Əliyev kursunun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə gələcəyə daha da inamla addımlayan ölkəmiz yeni-yeni uğurlara imza atacaq və Azərbaycan əsgəri qarşısına qoyulan istənilən tapşırığı yüksək səviyyədə yerinə yetirməyə qadirdir.

## Sərhədçilər ulu öndərin sərhəd mühafizəsinin inkişafındakı xidmətlərini minnətdarlıqla xatırlamışlar



Dekabr ayının 11-də Dövlət Sərhəd Xidmətinin Aparatında müasir Azərbaycan dövlətinin banisi ulu öndər Heydər Əliyevin anım günü münasibəti ilə tədbir keçirilmişdir. Tədbir iştirakçıları öncə Heydər Əliyev Elmi Araşdırmalar Mərkəzində dahi şəxsiyyətin nəsillərə nümunə olan həyat və fəaliyyətini əks etdirən çoxsaylı foto-ekspozisiya ilə tanış olmuşlar.

Ulu öndərin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanan tədbirdə çıxış edənlər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında misilsiz xidmətlərindən söz açmış, tarixə öz adını əbədi həkk etmiş nadir şəxsiyyətin, hər bir Azərbaycan vətəndaşının qürur mənbəyinə çevrilmiş, Vətəninə hədsiz məhəbbət, xalqının tarixinə, mədəniyyətinə, milli-mənəvi dəyərlərinə böyük sevgi nümunəsi olan qüdrətli siyasi xadimin həyat və fəaliyyətindən danışmışlar.

Dahi öndərin ölkəmizə rəhbərlik etdiyi illərin intibah, milli tərəqqi, müstəqil dövlət quruculuğu dövrü olduğu qeyd edilən tədbirdə böyük dövlət xadiminin müstəqil Azərbaycanın sərhəd mühafizəsinin inkişafındakı misilsiz xidmətləri minnətdarlıq hissi ilə xatırlanmışdır. Ulu öndərin müəllifi olduğu milli sərhəd strategiyasının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında müvəffəqiyyətlə yerinə yetirilməsi, ardıcıl həyata keçirilən islahatlar sayəsində Dövlət Sərhəd Xidmətinin sürətlə inkişaf edərək ölkəmizin sərhədlərini ən yüksək standartlar səviyyəsində mühafizə etməyə qadir olan bir quruma çevrilməsi qürur hissi ilə vurğulanmışdır.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə əldə edilən uğurların ulu öndər Heydər Əliyevin zəkasının təcəssümü, əmanət qoyub getdiyi ideyalarının təntənəsi olduğu xüsusi qeyd edilmişdir.

Tədbirin sonunda ümummilli liderin həyat və fəaliyyətinə həsr olunmuş sənədli film nümayiş etdirilmişdir.

***"Azərbaycan"***

## Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında ümummilli lider Heydər Əliyevin xatirəsi anılıb






Ümummilli lider Heydər Əliyevin əbədiyyətə qovuşmasının 15-ci ildönümü ilə əlaqədar dekabrın 11-də Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında anım tədbiri keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-leytenant Mədət Quliyev, Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidentləri Çingiz Hüseynzadə, Xəzər İsayev, gənclər və idman nazirinin müavinləri İsmayıl İsmayılov, İntiqam Babayev, MOK baş katibinin müavini Azər Əliyev, Milli Məclisin deputatları, idman ictimaiyyətinin nümayəndələri, Olimpiya və dünya çempionları, müəllim və tələbələr iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin akademiyanın foyesindəki abidəsi önünə gül dəstələri qoyaraq dahi şəxsiyyətin əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Sonra Azərbaycanın Dövlət himni səsləndirilib, ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən sənədli film nümayiş olunub.

Daha sonra Tofiq Quliyev adına 12 nömrəli musiqi məktəbinin tələbələri ulu öndərin sevdiyi mahnıları ifa ediblər.

## Ümummilli lider Heydər Əliyevin anım günü qeyd olunub

UNEC-də ümummilli lider Heydər Əliyevin anım gününə həsr olunan tədbir keçirilib. Tədbir iştirakçıları ümummilli liderin UNEC-də ucaldılan büstü önünə gül dəstələri düzərək, ulu öndərin əziz xatirəsini ehtiramla yad ediblər.

Tədbiri giriş sözü ilə açan UNEC-in rektoru, professor Ədalət Muradov ulu öndərin ölkənin dövlətçilik tarixində müstəsna xidmətlərinə diqqət çəkərək, dahi şəxsiyyətin ən böyük amalının müstəqil Azərbaycan dövlətinin davamlı inkişafı olduğunu bildirib. Ulu öndərin hələ sovetlər dövründə respublika iqtisadiyyatının strukturunun formalaşdırılması, milli gəlirin bölüşdürülməsi zamanı xalqımızın maraqlarını daim üstün tutmasından söz açan rektor, ümummilli liderin ölkənin gələcəyi üçün mühüm əhəmiyyət kəsb edən insan kapitalının formalaşdırılması istiqamətində gördüyü işləri xatırladıb. Dahi şəxsiyyətin dəstəyi və qayğısı ilə minlərlə gəncin respublika xaricində nüfuzlu ali məktəblərə göndərilərək, yüksəkixtisaslı, peşəkar kadrlar kimi yetişdiyini bildirib.



Ulu öndər Heydər Əliyevin, həmçinin dəyərli ailə başçısı olduğunu vurğulayan rektor, dahi şəxsiyyətin siyasətini davam etdirən prezident İlham Əliyevin xalqın rifahının yüksəlməsi və ölkənin çiçəklənməsi uğrunda əzmlə çalışmasının hər bir vətəndaşı öz işinə daha böyük inamla yanaşmağa ruhlandırdığını bildirib.

Tədbirdə tarix elmləri doktoru, professor Məhəbbət Paşayeva "Heydər Əliyev və Azərbaycan dövlətçiliyi tarixi faktlarla" mövzusunda məruzə ilə çıxış edərək dünya şöhrətli ictimai-siyasi xadim Heydər Əliyevin Azərbaycanın dövlətçilik tarixindəki əvəzsiz xidmətlərindən bəhs edib. Siyasi elmlər namizədi Leyli Həmidova isə "Heydər Əliyev - dünya şöhrətli siyasi lider" adlı məruzəsində ümummilli liderin təkcə postsovet məkanında deyil, həmçinin bütün dünyada tanınmış şəxsiyyət olduğunu qeyd edib.

Sonra tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevə həsr edilən videoçarxı izləyib.

Tədbirin bədii hissəsində SABAH mərkəzinin tələbəsi Jalə Rzayeva "Əsrin Heydər tarixi" poemasını səsləndirib.

***"Azərbaycan"***

*Azərbaycanın özü qədər əbədi*

# "Sönməzdir, əbədidir Heydər Əliyev!" adlı anım gecəsi təşkil olunub





Dekabrın 11-də Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr edilmiş "Sönməzdir, əbədidir Heydər Əliyev!" adlı anım gecəsi təşkil olunub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının xalq artisti Rauf Abdullayevin bədii rəhbəri və baş dirijoru olduğu Üzeyir Hacıbəyli adına Dövlət Simfonik Orkestrinin ifasında Qara Qarayevin "Matəm odası" səslənib. Orkestrin ifası zamanı monitorda ümummilli liderin həyat və fəaliyyətinə həsr olunmuş videofraqmentlər nümayiş etdirilib.

Tədbirdə qeyd olunub ki, 15 il əvvəl dekabr ayının 12-də müasir Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyev əbədiyyətə qovuşub. O, xalqımızın yaddaşına əbədi həkk olmuş dahi şəxsiyyətdir. Çox illər keçəcək, lakin azərbaycanlılar müdrikliyi və sarsılmaz mətinliyi sayəsində ölkəmizin gələcəyini təmin etmiş bu dahi insanı unutmayacaqlar. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş bu siyasəti hazırda Prezident İlham Əliyev uğurla davam etdirir.

Bildirilib ki, XX əsrin 90-cı illərində Azərbaycanın dəf etdiyi çətin yol yalnız ümummilli lider Heydər Əliyevin fəaliyyəti sayəsində tarixi həqiqətə çevrildiyi kimi, XXI əsrin əvvəllərinin möhtəşəm uğurları da ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyevin yeritdiyi siyasətin parlaq təzahürüdür.

Sonra Qara Qarayevin "Leyli və Məcnun" simfonik poeması, Frans Şubertin "Simfoniya №8" əsəri səsləndirilib.

Soltan Hacıbəyovun "Karvan" simfonik lövhəsi ilə davam edən anım gecəsi Fikrət Əmirovun "Azərbaycan kapriççiosu"nun ifası ilə başa çatıb.





# 40 ilin müəssisəsi




Bakı Dərin Özüllər Zavodu düz 40 il əvvəl yaradılıb. Müəssisənin harada işə düşməsi məsələsi ciddi mübahisələrlə qarşılandı. Bu məsələ İttifaq səviyyəsində müzakirə olunurdu. Onda neft-qaz ölkələrinin belə bir müəssisəyə böyük ehtiyacları vardı.

Mübahisələrin ciddiləşməsi məsələyə ulu öndər Heydər Əliyevin müdaxiləsi ilə son qoyuldu. Daha doğrusu, ulu öndərin nüfuzu, mövqeyi hər şeyə aydınlıq gətirdi. Beləliklə, Bakı Dərin Özüllər Zavodunun tikintisi üçün məkan Azərbaycan seçildi. Sonralar bu zavodun fəaliyyətini, xeyrini yüksək dəyərləndirən ulu öndər yazırdı: "Bu zavod indi, yəni biz xarici neft şirkətləri ilə birlikdə işləyərək yeni neft strategiyasını həyata keçirdiyimiz zaman, dənizin dərinliklərində böyük qurğular, platformalar tikdiyimiz zaman sovet dövründə olduğundan qat-qat faydalıdır".

Hadisələrin sonrakı gedişi bir daha sübut etdi ki, bu müəssisə "Əsrin müqaviləsi"nin uğurla həyata keçirilməsində də böyük rol oynayıb. Azərbaycanın yeni neft strategiyasını irəli sürərkən ulu öndər bu zavodun iqtisadi gücündən qədərincə istifadə olunmasını qarşıya məqsəd qoydu. Heydər Əliyev böyük uzaqgörənliklə yeni neft strategiyasının mahiyyətini irəli sürdü, Xəzər dənizində beynəlxalq əməkdaşlığın əsasını yaratdı. Əgər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi birinci dövrdə Dərin Özüllər Zavodu tikilməsəydi, "Əsrin müqaviləsi"nin icrası çox yubana bilərdi. Tarixdə ilk dəfə olaraq belə böyük, nəhəng investisiya qoyuluşunu tələb edən müəssisə yaradıldı. "Əsrin müqaviləsi" Azərbaycanın dünyanın öncül neft ölkəsi olmaq şöhrətini bərpa etdi. Bu gün Xəzərdə neft kəşfiyyatı aparılması, yeni texnologiyaların tətbiqi üçün geniş imkanlar yaradılıb. Xarici şirkətlərdən asılılıq dəfələrlə azalıb. Hesablamalara görə, Azərbaycanın neft ehtiyatları bundan sonra ən azı 100 ilə kifayət edəcək. Ölkənin zəngin neft ehtiyatları Azərbaycanın beynəlxalq nüfuzunun yüksəlməsinə, onun mövqeyinin daha da möhkəmlənməsinə şərait yaratdı. Bütün bu işlərdə Bakı Dərin Özüllər zavodunun müstəsna əhəmiyyəti var. Azərbaycan Prezidenti İlham Əliyevin dediyi kimi: "Əgər bu zavod vaxtında ölkəmizdə tikilməsəydi, bəlkə də həyata keçirdiyimiz neft layihələri belə uğurla başa çatmazdı".

Hələ o illərdə, yəni Bakı Dərin Özüllər Zavodunun tikintisi başlayanda ulu öndər vaxtaşırı həmin müəssisədə olur, faydalı məsləhətlərini verirdi. Həmin illəri xatırlayanlar o dövrdə görülən işlərdən çox şeylər danışırlar.

Allahyar Tağıyev:

- Az qala müəssisə istehsala başlayandan burada çalışıram. Ulu öndər Heydər Əliyevin zavoda gəlişini yaxşı xatırlayıram. Bizim hər birimizlə səmimi görüşür, dəyərli məsləhətlər verirdi. Bu zavodun perspektivini, gələcək uğurlarını yüksək qiymətləndirirdi. O illərdə ixtisaslı mütəxəssislər hazırlamaq üçün çox iş görülürdü. Xarici neft şirkətləri ilə əlaqə yaradırdıq, hətta həmin ölkələrdə təcrübəni artırmaq üçün şərait yaradılırdı. Ulu öndər deyirdi ki, yerli mütəxəssislərin gücündən, imkanından nə qədər çox faydalansaq, bir o qədər uğurlu olar. O, kadrlara qayğını ön plana çəkirdi. Neftçi mütəxəssislərin hazırlanmasına ciddi diqqət yetirirdi. Bütün bunlar ümumi işimizə xeyir verirdi. Yaxşı xatırlayıram ki, ən azı ulu öndər ildə bir-iki dəfə bu müəssisəyə baş çəkirdi. Qafqazın ən böyük sənaye nəhənglərindən olan Bakı Dərin Özüllər Zavodu bir neçə ildən sonra uğurlu inkişaf yoluna qədəm qoydu. Xarici şirkətlərlə əlaqələrimiz xeyli genişləndi. Elə bu uğurlu başlanğıc müəssisənin gələcək inkişafına da kömək etdi. Düz 40 ildir ki, uğurlu bir yol üstəyik. Elə bilirəm ki, ulu öndərin xeyir-duası ilə başlayan uğurlarımız daha da artacaq.

Namiq Xəlilov:

- 57 yaşım var. Ömrümün çoxunu bu müəssisədə keçirmişəm. Ulu öndərlə görüşümüzü isə maraqlı tarix, unudulmaz xatirə sayıram. Dəyərli məsləhətlər verirdi. Zavodumuzun eyni təmayüllü müəssisələrlə əlaqələrini daha da genişləndirmək üçün yollar axtarırdı. Xəzərdə neft kəşfiyyatını daha da artırmaq üçün yeni texnologiyaların tətbiqinə başladıq. Biz bu gün də müəssisənin uğurlu inkişafında ulu öndərin əməyini hiss edirik. Onun uzaqgörən siyasəti bizim potensial imkanlarımızı bir daha artırır, ən çətin anlarda köməyimizə çatır. Xəzərin Azərbaycan sektorunda yataqların hasil olunması, neftin dünya bazarına ixracı uğurla davam edir. Bütün bunlar yeni münasibətlərin qurulmasına kömək edir, ölkəmizin beynəlxalq arenada nüfuzunun artmasına zəmin yaradır. Biz inanırıq ki, uğurlu siyasət hələ uzun illər layiqincə davam edəcək.

Bakı Dərin Özüllər Zavodunda bir ənənə də yaşayır. Kadrlara münasibət, onların düzgün yerləşdirilməsi başlıca şərtlərdən biridir. Zavodun direktoru Roman Nağıyev deyir ki, mən özüm də bu müəssisənin yetirməsiyəm. Hələ bir vaxtlar bizim Rusiyanın ən böyük mərkəzlərində təhsil almamıza şərait yaradan ulu öndər kadrların gələcəyinə çox inanırdı. Elə mən özüm də o illərdə ulu öndərin zəmanəti ilə Rusiyada təhsil aldım. Neft mütəxəssisi kimi yenidən Azərbaycana qayıtdım. Bir müddət müxtəlif sahələrdə, neft sənayesinin tərəqqisində gücümü sınadım. Ən nəhayət, bu gün fəxr edirəm ki, ulu öndərin adını daşıyan Bakı Dərin Özüllər Zavodunun rəhbəriyəm. Biz çox iş görürük. Xarici şirkətlərlə əlaqələrimiz yeni mərhələdə davam edir. Çalışırıq ki, tərəf-müqabillərimizlə işgüzar münasibətlər yaradaq, zavodun uğurlarını daha da artıraq. Bunun üçün hər cür imkan və şərait var. Gərək potensial imkanlarımızı səfərbər edək, nəhəng müəssisəni əsl işlək gücünə çatdıraq.

***Bəşir ŞƏRİFLİ,***
***"Azərbaycan"***

# Dmitri SAVELYEV: "Heydər Əliyev azərbaycanlılara firavanlaşan ölkəni, bütün dünyaya həqiqi vətənpərvərlik nümunəsini miras qoyub"

"Tarixdə bütöv bir dövrün rəmzi olan, arxasınca xalqın getdiyi, sağlığında canlı əfsanəyə çevrilən şəxsiyyətlər az-az yaranır. Heydər Əliyev məhz belə insan idi". Rusiya Federasiyası Dövlət Dumasının deputatı, Rusiya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Dmitri Savelyev bu sözləri AZƏRTAC-a müsahibəsində deyib.

O vurğulayıb: "Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsində, beynəlxalq aləmdə ölkənin nüfuzunun artırılmasında, Rusiya ilə Azərbaycan arasında bu gün strateji xarakter daşıyan ikitərəfli münasibətlərin inkişafında bu dahi strateqin, istedadlı dövlət xadiminin tarixi rolunun əhəmiyyətini lazımınca qiymətləndirmək çətindir. Heydər Əliyev Sovet İttifaqı hökumətinin tərkibində işlədiyi dövrdə Rusiya ərazilərinin inkişafına da çox böyük töhfələr verib. Axı, Heydər Əliyev ən mürəkkəb və məsul sahələrə, o cümlədən həmin vəzifəyə gəldiyi dövrdə dərin böhran vəziyyətində olan dəmir yoluna, habelə o dövrün digər ən iri tikintilərinə - Qərbi Sibirdən və Urenqoydan ölkənin Avropa hissəsinə qaz kəmərləri çəkilişinə, məşhur Baykal-Amur Magistralına görə cavabdeh idi. Qaz sənayesinin, elmin, təhsilin, təbabətin inkişafı onun xüsusi nəzarətində idi. Yeri gəlmişkən, mənim doğma şəhərim Novosibirskdə SSRİ Pedaqoji Elmlər Akademiyasının Elmi-tədqiqat informatika və hesablama texnikası institutu məhz onun imzaladığı qərar sayəsində yaradılıb".

Dövlət Dumasının deputatı vurğulayıb ki, Heydər Əliyev son dərəcə savadlı adam idi. D.Savelyev deyib: "Məni ən çox heyrətləndirən budur ki, Heydər Əliyev ən yüksək vəzifələrdə çalışanda da həmişə nəyi isə öyrənir, əlavə ali təhsil alırdı, o cümlədən Kirov adına Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdi. Yəni o, sadəcə müdrik rəhbər deyil, həm də tarixin ibrət dərslərindən nəticə çıxarmağı bacaran, son dərəcə savadlı adam idi".

# Səfəvilər dövlətinə qarşı qriqorian kilsəsinin kəşfiyyat və siyasi-ideoloji fəaliyyətinin ifşa olunmasına həsr edilmiş qiymətli monoqrafiya





Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində dekabrın 11-də muzey kollektivi və respublika elmi ictimaiyyətinin aparıcı təmsilçilərinin iştirakı ilə keçirilən elmi sessiya akademik Ramiz Mehdiyevin bu günlərdə işıq üzü görmüş "Qriqorian kilsəsi Səfəvilər dövlətinə qarşı casusluq aləti kimi. XVII əsr - XVIII əsrin ilk dörddəbiri" monoqrafiyasının geniş müzakirəsinə həsr edilib.

AZƏRTAC xəbər verir ki, tədbiri açan muzeyin direktoru, akademik Rafael Hüseynov əvvəlcə akademik Ramiz Mehdiyevin son illərdə Şah İsmayıl Xətai və Səfəvilər dövləti ilə əlaqədar apardığı araşdırmalar və bunun elmi həyatımızdakı mühüm əhəmiyyətindən bəhs edərək deyib: "Azərbaycan tarix elmi və mədəniyyətşünaslığında Şah İsmayıl Xətainin şəxsiyyəti və fəaliyyəti, onun qurucusu olduğu Səfəvilər dövlətinin keçdiyi yol barədə çoxlu məqalələr, kitablar yazılıb, dissertasiyalar müdafiə edilib, yeni tədqiqatlar da aparılmaqdadır. Lakin akademik Ramiz Mehdiyevin son bir neçə il ərzində yazıb nəşr etdirdiyi "Şah İsmayıl Səfəvi ali məramlı tarixi şəxsiyyət kimi", "Şah İsmayıl Səfəvi: Hökmdarın və döyüşçünün portreti", "Şah İsmayıl Səfəvi: Tarixi, diplomatik sənədlər toplusu" əsərləri həm Xətaişünaslıqda, həm Səfəvi dövlətinin tarixini daha dərindən öyrənmək istiqamətində yeni bir mərhələnin başlanmasına təkan verib. Akademik Ramiz Mehdiyevin araşdırmalarını səciyyələndirən başlıca xüsusiyyət ondan ibarətdir ki, bu əsərlərin hamısında sətirlərin ardında yalnız mötəbər bir alim görünmür. Şəxsiyyətində həm görkəmli dövlət xadimini, həm də yüksək təcrübəyə və əhatəli biliklərə malik mükəmməl alim məziyyətlərini birləşdirən akademik Ramiz Mehdiyev seçdiyi istənilən problemə də elə bu görüm bucağından yanaşır. İctimaiyyətə təqdim etdiyi əsərlərin hər birində o, həm alim, həm ictimai xadim, həm dövlət adamıdır. Qələmə aldığı əsərlərin hər birində o, keçmişi, tarixin dünənində baş vermiş hadisələri araşdırsa da, həmin tədqiqatların nəticələrinin bu gün üçün hansı istiqamətlərdə gərəkli və əhəmiyyətli olacağını da unutmur, bəlkə də bunun daha da vacib olmasını vurğulayır. Yenicə elmi dövriyyəyə daxil olan "Qriqorian kilsəsi Səfəvilər dövlətinə qarşı casusluq aləti kimi" əsəri bu baxımdan akademikin illərdən bəri apardığı sistemli fəaliyyətin uğurlu davamı, alimin Səfəvilər dövlətinin tarixi və dövlətimizin müasir təhlükəsizliyi mövzusunu araşdırmaq sahəsində ciddi nailiyyəti hesab edilməlidir".

"Şərq-Qərb" nəşriyyatında buraxılmış, 10 çap vərəqi həcmində olan, müxtəlif xarici dillərdəki bir çox məxəzlər və tarixi araşdırmalara istinadlarla yazılmış, problemin qoyuluşu və həlli nöqteyi-nəzərindən tam yeni və orijinal olan bu monoqrafiya ilə bağlı ümumi məlumatları sessiya iştirakçılarının diqqətinə çatdırdıqdan sonra akademik Rafael Hüseynov əsərlə bağlı mülahizələrini əks etdirən "Səfəvilər dövlətinin açılmamış səhifələri və erməniçiliyin köhnə fitnəkarlıqları" adlı məruzə ilə çıxış edib. O qeyd edib ki, akademik Ramiz Mehdiyev Azərbaycan tarixinin bütün məsələlərinə və mərhələlərinə keyfiyyətcə yeni yanaşma tələb olunmasını bu əsəri ilə bir daha sübut edir. "Yaddaşsız, tarixin dərk olunmasına əsaslanmayan toplum həm bu günündən, həm də gələcəyindən məhrumdur" yazan akademik R.Mehdiyev yeni monoqrafiyası ilə tarixi hafizənin elə qatlarını açır ki, bu barədə elmimiz indiyədək səthi məlumata malik olub. Akademikin tarix elmimizdə hələ də mövcud arzuolunmaz hallara tənqidi münasibəti, ictimaiyyətə ünvanladığı proqram səciyyəli baxışlardan ibarət bu yeni monoqrafiyası Azərbaycan alimlərini səfərbər olmağa, xalqımızın ümdə tələblərinə cavab verən tarix əsərləri yazmağa və nəşr etdirməyə səsləyir.

Elmi sessiyadakı müzakirələrdə bir sıra tanınmış elm adamları və mütəxəssislər düşüncələrini bölüşüblər.

Tarix üzrə elmlər doktoru, professor Şahin Fərzəliyev əvvəlcə müstəqillik illərində Azərbaycan Respublikasında tarix elminin inkişafında akademik Ramiz Mehdiyevin rolunu ayrıca qeyd edib. Bildirilib ki, bu əsər Vətən tarix elmində fenomenal hadisə kimi dəyərləndirilə bilər. Ramiz Mehdiyev aktual, tədqiqi zəruri olan kəskin problemləri öncədən görmək və yüksək elmi səviyyədə araşdırmaq qabiliyyəti ilə fərqlənən tarixçidir desək, yanılmarıq. Onun bu əsəri Azərbaycan tarix elmində qriqorian kilsəsinin XVII əsr-XVIII əsrin birinci rübündə Səfəvi dövlətinə qarşı kəşfiyyat və siyasi-ideoloji fəaliyyətinin ilk dəfə ətraflı araşdırılması və işıqlandırılması faktı kimi olduqca əhəmiyyətlidir. Dörd fəsildən ibarət monoqrafiyada guya "Səfəvi şahlarının ermənilər qarşısında daim qorxu, xof duyğusu keçirmələri" haqqında erməni uydurmalarına əsaslı tənqidi münasibət bildirilir, "köhnə peşəsinə" - casusluğa sadiq qalan ermənilərin Səfəvi İmperiyası ərazisində Qərb dövlətlərinin xeyrinə casusluq fəaliyyəti araşdırılır, Səfəvi hökmdarlarının Vatikan emissarlarına və onların erməni yardımçılarına qarşı mübarizəsindən bəhs olunur, Səfəvi dövlətinin tənəzzülü və Moskva dövlətinin (Rusiyanın) yüksəlişi dövründə qriqorian kilsəsinin İslam türk dünyasına qarşı avantürist və dağıdıcı fəaliyyəti tədqiq edilir, ermənilərin yeni xəyanətlər yoluna üz tutduqları göstərilir.

Akademik bizə onu da xatırladır ki, erməni etnosunun xəyanətkarlığa, avantürizmə meyilli olması ermənilərin əsrlər boyu səpələnmiş halda məskunlaşmağa meyillənmələri onların etnogenezi ilə bağlıdır, ermənilərin xarakterinin mühüm cəhətidir, tarixi faktlar isə bizdən daim ayıq-sayıq olmağı, ermənilərlə ünsiyyət zamanı onların xəyanətkar olduğunu bir an belə yaddan çıxarmamağı tələb edir.

Akademik Ramiz Mehdiyev düzgün olaraq irad tutur ki, elmi ictimaiyyət nümayəndələri, şərqşünaslar, tarixçilər Heydər Əliyev Fondunun fəal yardımı ilə Vatikan arxivindən Azərbaycan Respublikasına gətirilmiş qriqorian kilsəsinin casusluq fəaliyyətini və avantürist əməllərini əks etdirən zəngin tarix materiallarını indiyədək, qismən də olsa, işləyib hazırlaya və cəmiyyətə təqdim edə bilməyib.

AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin şöbə müdiri, professor Şəfəq Əlibəyli çıxışında daha çox monoqrafiyada əksini tapmış vacib bir mövzu üzərində dayanıb. Qeyd edib ki, ermənilər Vatikan və bir sıra Qərb dövlətlərindən ötrü Səfəvilər dövləti əleyhinə kəşfiyyat məlumatları toplamaq, casusluq fəaliyyətlərini həyata keçirmək istiqamətində əsas qüvvə olublar. Məruzəçi, akademik R.Mehdiyevin qriqorian kilsəsinin azərbaycanlılara və türklərə qarşı düşmən və satqın siyasətinin köklərinin uzaq keçmişə gedib çıxdığı və bunun Azərbaycanla Türkiyə torpaqlarında "böyük Ermənistan" yaratmaq arzusu ilə bağlı olduğu qənaətinə şərik çıxdığını söyləyib. Xatırladıb ki, Romadan daimi maliyyə yardımı almaq erməni dini qurumunun da əsas məqsədinə çevrilmişdi. Vatikan üçün aydın idi ki, Eçmiədzin başda olmaqla, ermənilər istənilən səviyyədə casusluq fəaliyyəti göstərməyə hazırdır. Monoqrafiyada danılmaz sübutlar və dəlillər əsasında Səfəvilər dönəmində katolikliyi qəbul edən bəzi erməni din xadimlərinin ikiüzlü olması, maddi maraq xətrinə katolikliyi yalandan qəbul edib, qriqorianlığa xidmət göstərmələri ifşa edilir.

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin elmi işlər üzrə direktor müavini, professor Xatirə Bəşirli Ramiz Mehdiyevin yeni kitabının məziyyətlərindən söz açarkən ilk növbədə belə bir cəhət üzərində dayandı ki, əsər boyu erməni tarixçilərinin həqiqətləri tərsinə çevirən, ağa qara deyən, yalanlar və uydurmalardan ibarət mülahizələri təhlil edilir, saxtakarlıqların anatomiyası açıqlanır: "Hörmətli akademik Ramiz Mehdiyev erməni tarixçilərinin qələmə aldıqlarının heç bir elmi, dini əsası olmadığını və tarixi həqiqətlərə söykənmədiyini xüsusi vurğulayaraq yazır ki, "hansı erməni dövlətinin qaytarılmasından və onun uğrunda mübarizə aparmaqdan söhbət gedə bilər ki, 1441-ci ildə erməni kilsəsi öz taxt-tacını Qafqaza köçürmək üçün məhz Qaraqoyunlu dövlətinin hökmdarı Cahan şahdan (1436-1467) icazə almaq məcburiyyətində idi. Hətta erməni orta əsr salnaməçisi Arakel Davrijetsinin yazılarından anlaşılır ki, erməni ruhanilərinin başçısı patriarx Zəkəriyyənin Cahan şahla görüşü zamanı hökmdar lütfkarlıq göstərərək qriqorian kilsəsinə İrəvan yaxınlığında yerləşən Eçmiədzində torpaq sahəsi ayırıb".

Məruzəçi müasir erməni tarixçilərinin bir çox yazılarını elə erməni mənbələri vasitəsilə ifşa etməsini akademik R.Mehdiyevin bu əsərindəki ən cəlbedici və elmi baxımdan faydalı əlamət kimi dəyərləndirib.

Tarix elmləri doktoru, professor Kamil İbrahimov akademik R.Mehdiyevin bu kitabını Səfəvilər dövlətinə qarşı casusluq, şantaj və separatizm vasitəsinə çevrilmiş qriqorian kilsəsinin kəşfiyyat və siyasi-ideoloji fəaliyyətinin yerli-yataqlı faş edilməsi yolunda ilk sanballı cəhd adlandırıb. Qeyd edib ki, müəllif özünün yeni kitabı ilə azərbaycanlı tarixçi alimlərə ölkəmizin uzaq və yaxın keçmişinin tədqiqinə necə yanaşmaq lazım olması nümunəsi göstərir. Müəllif tarixi faktlara əsaslanaraq yazır ki, ermənilərin mənfur xisləti, erməni şovinizmi, ekstremizmi və hərbi təcavüzü təkcə Səfəvilər dövlətində deyil, Qafqaz Albaniyasından başlamış Azərbaycan Xalq Cümhuriyyətinə qədər davam edib, Azərbaycan ərazisində bu gün də davam edir.

Ermənilərin tarixini araşdırarkən əldə olunmuş faktlar sübut edir ki, satqınlıq, casusluq, bədrəftarlıq, oğurluq, başqa millətdən olan insanları qəbul etməmək erməni xislətində konkret məqsədlərə nail olmağa yönəlmiş şüurlu hərəkətlərdir. Müəllif elə ermənilərin öz mənbələrinə, o cümlədən orta əsr salnaməçiləri (Arakel Davrijetsi, Zəkəriyyə Kenakertsi), habelə Rusiya və Qərb tədqiqatçılarının əsərlərinə istinad edir. Bu əsərlərdə göstərilir ki, Səfəvi dövlətinin hökmdarları erməni əhaliyə tolerant münasibət bəsləyib, dini etiqad və əmlak münasibətləri məsələlərində onlara tam sərbəstlik verib, onların ticarətlə məşğul olmasına maneçilik törətməyib, uzun müddət Avropa və Rusiya bazarlarına o dövrün ən gəlirli mallarından biri olmuş Azərbaycan ipəyinin praktiki olaraq inhisarçı tədarükçüləri olmasına imkan veriblər. Akademik R.Mehdiyev yazır: "Bunun müqabilində onlardan (ermənilərdən) yalnız vergiləri vaxtında ödəmək, qanunlara riayət etmək və hakimiyyətin iradəsinə tabe olmaq tələb edilirdi". Bu isə artıq başqa məsələdir ki, ermənilər bu cür xeyirxah münasibətin müqabilində adətləri üzrə qədirbilməzlik göstərirdilər.

Məruzəçi, akademik R.Mehdiyevin təqdim olunan kitabındakı fikir və problemlər dairəsinin əslində zahirən göründüyündən geniş olmasına diqqət yönəldərək bildirib: "Sırf elmi materialın şərh edilməsi ilə kifayətlənməyən alim respublikada humanitar elmlərin taleyinə görə narahatlıq keçirir, göstərir ki, bu elmlər təhlil, obyektiv tənqid metoduna keçməli, gərəksiz pafosa, sözçülüyə son qoyulmalıdır. Bu mövzu üzrə xarici arxiv mənbələrindən istifadə imkanının məhdud olması alimin həqiqətən sanballı elmi əsər yaratmasına mane olmayıb. Əminliklə demək olar ki, tarixi-fəlsəfi faktlarla zəngin olan bu kitab Azərbaycan tarixşünaslığında yeni səhifə açacaq".

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin şöbə müdiri, professor Kamil Allahyarov ermənilərin nə qədər riyakar və saxtakar olmalarını ən azı son 30 il ərzində xalqımıza qarşı törədilən olmazın cinayətlərdən yaxşı bildiyimizi, cinayətkar olduqları halda, özlərini dünyaya əzilən, təcavüzə məruz qalan xalq kimi göstərmələrindən, hər şeyi dünyaya təhrif olunmuş şəkildə təqdim etmələrindən xəbərdar olduğumuzu söyləyib. Natiq əlavə edib ki, akademik Ramiz Mehdiyevin kitabının ilk ibrəti bundan ibarətdir ki, bizə bu erməni xislətinin tarixi köklərini nümayiş etdirir, əslində, bu mərəzin daim onların mahiyyətində yaşadığını aşkarlayır. Ancaq dünya xalqlarının əksəriyyəti həqiqətlərdən xəbərsiz olduqlarına görə ermənilərin uydurduqları yalanlara inanırlar. Belə yalanları yaymaq işində isə ermənilər çox ustalaşıblar. Həm də onların çoxsaylı və güclü diasporları var. Hələ XV əsrdən başlayaraq ermənilər ticarət vasitəsilə Rusiyaya, Avropaya, Hindistana, hətta Çinə qədər yayılıblar. Ona görə də hələlik biz özümüz bu sahədə çox çalışmalı, bu barədə çoxlu kitab və məqalələr yazıb, xarici dillərdə çap etdirməliyik. Akademik Ramiz Mehdiyevin "Qriqorian kilsəsi Səfəvilər dövlətinə qarşı casusluq aləti kimi. XVII əsr - XVIII əsrin ilk dörddəbiri" adlı kitabı da bu məqsədə xidmət edir.

Elmi sessiyanı yekunlaşdıran akademik Rafael Hüseynov görkəmli dövlət xadimi, akademik Ramiz Mehdiyevin "Qriqorian kilsəsi Səfəvilər dövlətinə qarşı casusluq aləti kimi. XVII əsr - XVIII əsrin ilk dörddəbiri" kitabını zəngin arxiv materialları, mühüm tarixi qaynaqlar, hərtərəfli müqayisələr, dərin təhlillər əsasında yazılmış və tarixşünaslığımıza və geniş ölçüdə Azərbaycanşünaslığa bir töhfə olan əsər kimi dəyərləndirib. O, akademik R.Mehdiyevlə bu nöqtədə tam şərik olduğunu bildirib ki, bu qəbil mürəkkəb, çoxşaxəli və çətin problemlərin araşdırılması üçün Şərq dillərini, Qərbi Avropa dillərini, habelə erməni dilini mükəmməl bilən mənbəşünasların yetişdirilməsinə və onların elmi potensialından layiqincə istifadə olunmasına ciddi ehtiyac var.

Bu monoqrafiyanın keçmişimizin unudulmuş, az tədqiq edilmiş, qaranlıq səhifələrində nə qədər vacib həqiqətlərin gizləndiyini əyani olaraq ortaya qoyduğunu söyləyən akademik Rafael Hüseynov kitabın tezliklə həm Azərbaycan dilində, həm də xarici dillərdə nəşr edilməsinin zəruri olduğunu söyləyib.

Belə bir inam ifadə edilib ki, akademik Ramiz Mehdiyevin bu əsəri milli tarixçiliyimizdə və cəmiyyətşünaslıqda büsbütün yeni baxışları əks etdirən orijinal bir araşdırma olaraq yeni tədqiqatlar silsiləsinin meydana çıxmasına da etibarlı zəmin yaradır.

# Nazirlər Kabinetində Əhalinin Siyahıyaalınmasına Yardım üzrə Mərkəzi Komissiyanın iclası keçirilib



Dekabrın 11-də Nazirlər Kabinetində Əhalinin Siyahıyaalınmasına Yardım üzrə Mərkəzi Komissiyanın iclası keçirilib. AZƏRTAC xəbər verir ki, Baş nazirin müavini, komissiyanın sədri Əli Həsənovun yanında keçirilən iclasda müvafiq dövlət qurumlarının rəhbərləri və nümayəndələri müzakirələr aparıblar.

Baş nazirin müavini bildirib ki, əhalinin siyahıyaalınması Prezident İlham Əliyevin 2016-cı ildə imzaladığı "2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasının keçirilməsi haqqında" fərmana uyğun aparılır. Nazirlər Kabinetinin 2016-cı il 16 dekabr tarixli qərarı ilə yaradılan komissiyanın bugünkü iclasının keçirilməsində əsas məqsəd siyahıyaalma prosesini ciddi müzakirə etmək və prosesi sürətləndirməkdən ibarətdir. Hər 10 ildən bir baş tutan əhalinin siyahıyaalınması növbəti dəfə 2019-cu ilin oktyabr ayında keçiriləcək.

Hazırlıq prosesinə 43 min insanın cəlb olunduğunu deyən Baş nazirin müavini qeyd edib ki, sorğu vərəqələri artıq hazırlanıb. Əhalinin sayına uyğun vərəqələr hazırdır. 28 bənddən ibarət sorğuda 180 göstərici yer alıb. Əhalinin bu sorğulara tam, dolğun cavab verməsi mühüm əhəmiyyət kəsb edir.

İclasda vurğulanıb ki, bu prosesin əhaliyə geniş şəkildə çatdırılması üçün KİV-in üzərinə böyük vəzifə düşür. Sonra Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov hazırlıq prosesi ilə bağlı ətraflı məlumat verib.

Daha sonra maraq doğuran məsələlər təhlil edilib, aidiyyəti üzrə tapşırıqlar verilib.

# İran Azərbaycanın ərazi bütövlüyünü və ədalətli mövqeyini dəstəkləyir



Dekabrın 11-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov İran İslam Respublikasının Sərhəd Qoşunlarının komandanı, general-mayor Qasım Rzayinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, general-polkovnik Z.Həsənov regiondakı hərbi-siyasi vəziyyət, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin regional sabitliyə ciddi təhdid təşkil etdiyini diqqətə çatdırıb.

Q.Rzayi dövlətlərimiz arasındakı dini, tarixi, mədəni əlaqələrin mehriban dostluq ənənələrinə əsaslandığını, ölkələrimiz arasında bir çox istiqamətlərdəki kimi hərbi sahədə də əməkdaşlıq üçün geniş potensialın olduğunu vurğulayıb. O, ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü və münaqişənin həlli ilə bağlı ədalətli mövqeyini dəstəklədiyini bəyan edib.

Görüşdə Azərbaycan və İran orduları arasında hərbi sahədə əməkdaşlığın inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

# İranın hüquq mühafizə orqanları Azərbaycanın müvafiq qurumları ilə əməkdaşlığın dərinləşdirilməsinə böyük önəm verir



Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Ramil Usubov dekabrın 11-də ölkəmizdə səfərdə olan İran İslam Respublikasının Sərhəd Qoşunlarının komandanı Qasım Rzayinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə general-polkovnik Ramil Usubov xalqlarımız arasında çoxəsrlik tarixi, mədəni, dini yaxınlığın mövcudluğunu, təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş möhkəm dostluq və qonşuluq münasibətlərinin dövlətlərimizin başçılarının qarşılıqlı səfərləri, aparılan danışıqlar və imzalanmış sənədlər nəticəsində keyfiyyətcə yeni səviyyəyə yüksəldiyini diqqətə çatdırıb. Nazir Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən bu siyasətin uğurla davam etdirildiyini nəzərə çatdırıb, iki ölkənin münasibətlərinin səmimi dostluq və strateji tərəfdaşlıq xarakteri daşımasının xalqlarımızın və dövlətlərimizin həyati mənafelərinə uyğun olduğunu vurğulayıb.

Bu ilin sentyabrında qonşu ölkəyə səfərini, bu çərçivədə İranın yüksəkvəzifəli dövlət rəsmiləri, o cümlədən Qasım Rzayi ilə görüşlərini məmnunluqla xatırladan nazir R.Usubov belə görüşlərin ümumən cinayətkarlıq və beynəlxalq terrorizmlə mübarizədə səylərimizin birləşdirilməsi üçün geniş imkanlar yaratdığını, qlobal xarakter almış transmilli mütəşəkkil cinayətkarlığın təhlükəli növlərinə, xüsusən terrorizmə və narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə əməkdaşlığın böyük potensiala malik olduğunu qeyd edib.

Nazir R.Usubov son illər vətəndaşlarımızın gediş-gəlişlərinin artması, eləcə də turizmin inkişafı ilə əlaqədar hər iki ölkədə əmin-amanlığın, ictimai təhlükəsizliyin yüksək səviyyədə təmin olunmasında birgə səylərin bundan sonra da davam etdirilməsinin vacibliyini nəzərə çatdırıb.

Söhbət zamanı qonaqlara Azərbaycandakı mövcud kriminogen vəziyyət haqqında qısa məlumat verilib. Respublikamızda dövlət müstəqilliyinin, demokratik prinsiplərin möhkəmləndirilməsi, ictimai münasibətlərin hüquqi tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi sahəsində görülən işlər diqqətə çatdırılıb. Qeyd olunub ki, hüquq mühafizə orqanları sıx, qarşılıqlı əlaqədə cinayətkarlığa, o cümlədən mütəşəkkil cinayətkarlığa qarşı kompleks tədbirlər həyata keçirirlər.

Qasım Rzayi səmimi qəbula, xoş sözlərə və ətraflı məlumata görə minnətdarlığını bildirib. O, regionda qeyri-sabitliyin, terrorun və ekstremizmin hökm sürməsi fonunda hər iki ölkədə sabitliyin, əmin-amanlığın təmin edilməsinin, transmilli mütəşəkkil cinayətkarlıqla mübarizədə məlumat və təcrübə mübadiləsinin bölgədəki təhlükəsizliyə müsbət təsir göstərəcəyini qeyd edib. Qonaq İranın hüquq mühafizə orqanlarının azərbaycanlı həmkarları ilə əməkdaşlığın daha da dərinləşdirilməsinə böyük önəm verdiyini vurğulayıb.

Görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə edilib.

İranın Azərbaycandakı səfiri Cavad Cahangirzadə də görüşdə iştirak edib.

# Respublika Veteranlar Təşkilatının VIII plenumu olub





Dekabrın 11-də Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının VIII plenumu keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə dövlət nümayəndələri, veteranlar, şəhər və rayon veteran təşkilatlarının sədrləri iştirak ediblər.

Respublika Veteranlar Təşkilatının sədri, istefada olan general-polkovnik Tofiq Ağahüseynov plenumu açaraq tədbirin gündəliyi barədə məlumat verib. Bildirib ki, tədbirdə təşkilatın builki fəaliyyətinin yekunları, 2019-cu il üçün tədbirlər planı və cari məsələlər müzakirə olunacaq.

Gündəlik təsdiqləndikdən sonra Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov qurumun cari ildəki fəaliyyətinin yekunlarına və qarşıda duran vəzifələrə dair hesabat məruzəsi ilə çıxış edib.

Hesabat dövründə təşkilatın Rəyasət Heyətinin iclaslarında veteranların sosial müdafiəsi məsələsi müzakirə olunub, onlara kömək göstərilib.

Plenumda çıxış edən Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdir müavini Ərəstun Mehdiyev bildirib ki, Respublika Veteranlar Təşkilatı ölkəmizin ictimai-siyasi həyatında fəallığı və səmərəli fəaliyyəti ilə seçilir, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasəti hərtərəfli dəstəkləyirlər.

Bu ilin ölkə həyatında bir çox mühüm hadisələrlə zəngin olduğunu vurğulayan Ə.Mehdiyev veteranlarımızın bu tədbirlərdə yüksək fəallıq nümayiş etdirdiklərini diqqətə çatdırıb. Veteranların böyük döyüş və mənalı həyat yolu keçərək zəngin təcrübə qazandıqlarını qeyd edən şöbə müdirinin müavini bildirib ki, buna görə də onlara cəmiyyətin ağsaqqalı, müdrik sözü, qəti və aydın mövqeyi olan insanlar kimi hörmət və ehtiram göstərilir. Bu baxımdan veteranların ictimai-siyasi proseslərdə rolu çox böyükdür. Onlar həmişə cəmiyyətdə öndə gedərək aydın şəkildə qəti vətəndaşlıq mövqeyi nümayiş etdirirlər. Azərbaycan dövləti də həmişə veteranlara yüksək diqqət və qayğı göstərir. Dövlət siyasətinin prioritet istiqamətlərindən biri veteranların qayğı ilə əhatə olunması, onların fəaliyyətinin təmin edilməsi üçün lazımi tədbirlərin görülməsidir. Bu gün Respublika Veteranlar Təşkilatının fəaliyyəti üçün yaradılan şərait bütün bunları aydın şəkildə sübut edir.

Bu il ölkəmizdə Azərbaycan Xalq Cümhuriyyətinin və Azərbaycan Ordusunun yaradılmasının 100 illik yubileylərinin yüksək səviyyədə qeyd olunduğunu deyən Ə.Mehdiyev vurğulayıb ki, müxtəlif vaxtlarda Azərbaycan Silahlı Qüvvələrində xidmət edən veteranlarımız ordumuzun xalqımız və dövlətimiz qarşısında vəzifə borcunu yerinə yetirməsi, onun təhlükəsizliyinin qorunması, əmin-amanlığının təmin olunması işinə bu gün öz töhfələrini verirlər. Veteranlarımız indi də bu işin öhdəsindən gəlmək əzmi ilə çalışır, qarşıda duran əsas vəzifənin - işğal altındakı ərazilərimizin azad olunması istiqamətində istər orduda, istərsə də cəmiyyətdə hərbi-vətənpərvərlik ruhunun artırılması işində fəal iştirak edirlər.

Naxçıvan Muxtar Respublikası Veteranlar Təşkilatının sədri Firudin Süleymanov, Şəki rayon veteranlar təşkilatının sədri Mustafa Əhmədov, Gəncə şəhər veteranlar təşkilatının sədri Yusif Məmmədov və digərləri hesabat dövründə görülən işlərdən danışıblar.

Çıxış edənlər, eləcə də Respublika Veteranlar Təşkilatının Rəyasət Heyətinin üzvü, professor Bəhram Zahidov, təşkilatın Nəzarət-Təftiş Komissiyasının sədr müavini Salman Babayev və başqaları Respublika Veteranlar Təşkilatının illik fəaliyyətini qənaətbəxş qiymətləndiriblər. Natiqlər yeniyetmə və gənclərimizin milli və hərbi vətənpərvərlik ruhunda tərbiyəsi işində, veteran hərəkatının inkişafında, cəmiyyətimizin həyatında mühüm rol oynayan Respublika Veteranlar Təşkilatının uğurlu fəaliyyətini qeyd edib, qarşıda duran vəzifələrdən danışıblar. Plenumun iştirakçıları Respublika Veteranlar Təşkilatının hər zaman dövlətin yanında olduğunu, Prezident İlham Əliyevin ətrafında sıx birləşərək onu dəstəklədiklərini bildiriblər.

Daha sonra C.Xəlilov gündəlikdəki ikinci məsələ olan Respublika Veteranlar Təşkilatının 2019-cu il üçün tədbirlər planı barədə məlumat verib.

Plenumda müzakirəyə çıxarılan məsələlər, o cümlədən Respublika Veteranlar Təşkilatının tədbirlər planı, habelə qurumun hesabat dövründəki fəaliyyətinin yekunları səsə qoyularaq qənaətbəxş hesab edilib.

# Azərbaycan-İran sərhədində infrastrukturun müasirləşdirilməsi müzakirə edilib

İran İslam Respublikasının Sərhəd Qoşunlarının Komandanı general-mayor Qasım Rzayinin rəhbərlik etdiyi nümayəndə heyəti 10-11 dekabr 2018-ci il tarixlərdə Azərbaycan Respublikasına səfər etmişdir.



Dövlət Sərhəd Xidmətinin Aparatında general-mayor Qasım Rzayinin təntənəli qarşılanma mərasimi keçirilmişdir. Rəsmi protokola uyğun olaraq İran İslam Respublikasının Sərhəd Qoşunlarının Komandanı "Fəxri qonaq kitabı"nda ürək sözlərini yazmışdır.

11 dekabr tarixdə nümayəndə heyətlərinin geniş tərkibli görüşündə Azərbaycan və İran dövlət sərhədində və dövlət sərhədindən buraxılış məntəqələrində mövcud vəziyyət, onun inkişaf tendensiyaları barədə fikir mübadiləsi aparılmış, narkotiklərin qaçaqmalçılığı, beynəlxalq terrorçuluq, qeyri-leqal miqrasiya, qadağan olunmuş malların daşınması və sərhəd təhlükəsizliyinə digər təhdidlərlə mübarizə sahəsində əməkdaşlığın vəziyyəti nəzərdən keçirilmişdir.

Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik E.Quliyev Azərbaycan Respublikasının sərhəd təhlükəsizliyinə göstərilən ali dövlət qayğısı sayəsində bu gün ölkə sərhədlərinin mühafizəsinin yüksək səviyyədə təmin olunması, sərhəd infrastrukturunun müasirləşdirilməsi və təkmilləşdirilməsi üzrə həyata keçirilən islahatlar və tədbirlər haqqında məlumat vermişdir. Qeyd olunmuşdur ki, Ermənistan Respublikasının Azərbaycan Respublikasının 20 faiz ərazisini, o cümlədən Azərbaycan-Ermənistan və Azərbaycan-İran dövlət sərhədinin bir hissəsini işğal altında saxlamaqda davam etməsi sərhəd təhlükəsizliyinə əsas təhdid olaraq qalmaqdadır.

Nümayəndə heyətləri ikitərəfli əməkdaşlığın inkişaf dinamikasını müsbət qiymətləndirmiş, Azərbaycan və İran sərhəd qurumları arasında mövcud əlaqələrin səviyyəsinin dövlət sərhədində qanunsuz fəaliyyətlərin qarşısının alınması üzrə məsələlərin birgə həll edilməsinə töhfə verdiyini vurğulamışlar.

Azərbaycan Respublikası və İran İslam Respublikasının iştirakı ilə həyata keçirilən beynəlxalq əhəmiyyətli nəqliyyat infrastrukturu layihələri çərçivəsində "Astara dəmir yolu" dövlət sərhədindən buraxılış məntəqəsinin fəaliyyəti, iki dövlət arasında iqtisadi əlaqələrin genişləndirilməsi, daşıma imkanlarının təkmilləşdirilməsi məqsədilə dövlət sərhədindən buraxılış məntəqələrində şəxslər, nəqliyyat vasitələri və yüklər üzərində sərhəd nəzarətinin sürətləndirilməsi və təkmilləşdirilməsi üzrə həyata keçirilmiş tədbirlərin əhəmiyyəti vurğulanmışdır.

Tərəflər "18 noyabr 2010-cu il tarixli Xəzər dənizində təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında Sazişə əlavə Xəzər dənizində sərhəd qurumlarının əməkdaşlığı və qarşılıqlı fəaliyyəti haqqında Protokol"un icrasından irəli gələn məsələlər, sərhəd təhlükəsizliyinin təmin edilməsi, transsərhəd cinayətkarlığın təzahürləri ilə mübarizə sahəsində qarşılıqlı fəaliyyət və digər aidiyyəti istiqamətlər üzrə əməkdaşlığın davam etdirilməsi barədə razılığa gəlmişdir.

Səfər dostluq və qarşılıqlı anlaşma şəraitində keçmişdir.

*"Azərbaycan"*

# İsmayıllı Riştonla qardaşlaşdı

Azərbaycanın İsmayıllı rayonu ilə Özbəkistanın Fərqanə vilayətinin Rişton şəhəri arasında "Qardaşlaşmış şəhərlər" statusu haqqında müqavilə imzalanması ilə bağlı mərasim keçirilib. Tədbir Azərbaycanın Özbəkistandakı səfirliyi və bu qurumun nəzdindəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) layihəsi ilə reallaşıb.

Daşkənddən Fərqanə vilayətinin Rişton şəhərinə gedən Azərbaycan nümayəndə heyətinə ölkəmizin Özbəkistandakı səfiri Hüseyn Quliyev rəhbərlik edib.

Nümayəndə heyətinə İsmayıllı Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Rövşən Ağayev, AMM-nin direktoru Samir Abbasov, İsmayıllı Rayon Regional Mədəniyyət İdarəsinin rəisi Elnur Hüseynov, rayon təhsil şöbəsinin müdiri Rasim Orucov, "İsmayıllı xəbərləri" qəzetinin baş redaktoru Şahməmməd Dağlaroğlu və iş adamı Azad Əliyev daxil olub.

Bu münasibətlə Rişton şəhər hakimiyyətində keçirilən mərasimdə şəhər hakimi Sadıkcon Xaydarov bildirib ki, ölkənin şərqində yerləşən Rişton Böyük İpək Yolunun üzərində yerləşən Fərqanə vadisinin ən qədim şəhərlərindən biridir. Qədim dövrlərdən bəri Orta Asiyada keramika istehsal edən böyük mərkəz kimi tanınan Riştonun tarixi bizim eranın II əsrinə təsadüf edir. 1899-cu ildə Parisdə keçirilən keramika sənəti üzrə Dünya Sərgisində Rişton keramika kolleksiyası birinci yerə layiq görülənlər arasında olub. Deyilib ki, hazırda şəhərdə 3000-dən çox keramika sənətkarı var. Rişton ustalarının əsərləri Özbəkistan Dövlət İncəsənət Muzeyi, Moskva şəhərindəki Şərq İncəsənəti Muzeyi, Sankt-Peterburq Etnoqrafiya Muzeyi, Dövlət Ermitajı, ABŞ, Böyük Britaniya və Yaponiya muzey kolleksiyalarını bəzəyir.

Hüseyn Quliyev ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin yüksələn xətlə inkişaf etdiyini bildirib. Vurğulayıb ki, Azərbaycan və Özbəkistan şəhərləri arasında "Qardaşlaşmış şəhərlər" layihəsi ilk dəfə olaraq həyata keçirilir və hər iki şəhər öz zəngin mədəniyyəti, qədim tarixi, gözəllikləri ilə turistləri valeh edir. İsmayıllı və Rişton milli mədəniyyətimizə, xalq sənətinə daim öz töhfələrini verib və onu zənginləşdirib. O bildirib ki, müqavilə imzalandıqdan sonra İsmayıllı və Rişton arasında əlaqələr daha da dərinləşəcək, çoxsaylı mübadilə proqramları, birgə layihələr həyata keçiriləcək.

İsmayıllı rayon İcra Hakimiyyəti başçısının birinci müavini Rövşən Ağayev isə bildirib ki, İsmayıllı və Rişton şəhərləri arasında oxşarlıq və yaxın xüsusiyyətlər var. Hər iki rayon tarixən ticarət yollarının üzərində yerləşib, öz sənətkarlığı və əl işləri ilə dünyada tanınıb. "Azərbaycanın sənətkarlıq paytaxtı" elan edilən İsmayıllı özünün sənətkarlıq ənənələri, rəngarəng əl işləri, ipəkçilik sənəti, zəngin təbiəti, turizm ehtiyatları, tarixi-mədəniyyət abidələri ilə şöhrət qazanıb. İsmayıllı Azərbaycan misgərlik sənətinin, habelə ipəkçilik sənətinin mərkəzidir. İsmayıllı rayonunun Lahıc qəsəbəsində ənənəvi xalq sənəti olan mis qabların və müxtəlif məhsulların istehsalı həyata keçirilir. 2015-ci ildə Lahıcın misgərlik sənəti UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilib.

R.Ağayev deyib ki, bu, İsmayıllının dünya şəhərləri ilə yeddinci "Qardaşlaşmış şəhərlər" statusu qazanmasıdır. Bundan əvvəl Belarusun Nesvij, Latviyanın Tsesis, Yaponiyanın İto, Fransanın Evian-le-Ben, İsrailin Kiryat Byalık və Çexiyanın Çeske Budeyovitse şəhərləri ilə qardaşlaşmışıq və uğurlu əməkdaşlıq edirik.

Çıxışlardan sonra İsmayıllı rayonu ilə Rişton şəhəri arasında "Qardaşlaşmış şəhərlər" statusu haqqında saziş imzalanıb. Sənədi Sadıkcon Xaydarov və Rövşən Ağayev imzalayıblar.

Sazişə əsasən tərəflər elm, təhsil, mədəniyyət, səhiyyə, idman, turizm və qarşılıqlı maraq doğuran digər məsələlərdə əməkdaşlıq münasibətlərinin qurulması istiqamətində iş aparacaqlar.

Nümayəndə heyəti Rişton şəhərindəki "Əlişir Nazarovun keramika emalatxanası" və "Koron" Keramika Mərkəzində də olub, sənətkarların əl işlərinə baxıblar.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***

# Fransa sarı rəngə boyanıb

## Hökumət böhrandan çıxış yolu tapa bilmir

Ötən ayın 17-də Fransada "sarı jiletlər" hərəkatının avtomobil yanacağının qiymətlərinin və vergilərin artmasına etiraz əlaməti olaraq başladığı kütləvi nümayişlər səngimir. Aksiyaların gedişində iştirakçılar yeni tələblər irəli sürür, dövlət başçısına və hökumətə etimadsızlıq nümayiş etdirirlər. Nümayişçilər tez-tez polislə toqquşur, iğtişaşlar törədir, mağazaların vitrinlərini qırır, nəqliyyat vasitələrini yandırır, bankomatları və digər obyektləri dağıdırlar.



Öz növbəsində hüquq mühafizə orqanları da hərəkətsiz qalmır, kütlələri dağıtmaq üçün bütün vasitələrə əl atır, dəyənəkləri işə salır, etirazçıları gözyaşardıcı qaza "qonaq edir". Son rəsmi məlumata görə, etiraz aksiyalarının gedişində indiyədək 130 nəfərə yaxın adam yaralanmış, 4,5 min nəfərdən çox adam saxlanmış, onların 4099-u zorakılıq aktları həyata keçirmək və cinayət törətməyə təhrik etmək ittihamı ilə həbsə atılmışdır.

Ölkənin müxtəlif şəhərlərində xalq etirazlarını yatırmaq üçün 89 mindən çox polis əməkdaşı cəlb edilmişdir.

Belə bir şəraitdə iqtidarın nümayəndələri çıxılmaz vəziyyətə düşmüşlər. Maliyyə naziri Brüno Le Mer "sarı jiletlər"in etirazlarını milli ticarət və iqtisadiyyat, həmçinin millət üçün böhran kimi qiymətləndirir.

Hökumət kütləvi aksiyaların dayanması üçün geri çəkilmək məcburiyyətində qalaraq benzin və dizel yanacağının qiymətlərini altı ay artırmayacağını elan etdi. Bir aya yaxındır davam edən etiraz aksiyalarını müşahidə etməklə kifayətlənən Fransa Prezidenti Emmanuel Makron, nəhayət, sragagün səssizliyini pozub xalqa müraciət etdi. O, ölkədə yaranmış vəziyyətə görə məsuliyyətin bir hissəsini üzərinə götürərək bəzi vədlər verdi. Makronun dediyinə görə, 2019-cu ildən etibarən minimal əməkhaqqı 100 avro artacaq. Gələn il aylıq gəliri 2000 avrodan az olan pensiyaçılardan tutulan sosial vergi artırılmayacaq. İş günündən artıq görülən işə görə əməkhaqqından vergi tutulmayacaq. Makronun dediyinə görə, ölkənin işsizlərə kompensasiya və təqaüdçülərə layiqli pensiya verilməsini nəzərdə tutan dərin islahata ehtiyacı var: "Bizə daha ədalətli, sadə və aydın qaydalar lazımdır".

Lakin hökumətin və Prezidentin gördüyü tədbirlər və verdiyi vədlər etirazçıları razı salmayıb. Odur ki, "sarı jiletlər" kütləvi aksiyaları davam etdirmək niyyətindədirlər.

Makron və onun komandası qarşılaşdığı vəziyyətdən çıxış yolu tapa bilmir. İş o yerə gəlib çatmışdır ki, iqtidar xalqın etimadını itirməkdə davam etdiyi kimi, ənənəvi müttəfiqlərinin də dəstəyindən məhrum olur. Bu baxımdan Makronun "səy"i ilə Fransa-ABŞ münasibətlərinin pisləşməsi diqqəti cəlb edir. Müşahidəçilər qeyd edirlər ki, iki ölkə arasında çoxlu ziddiyyətlər yığılıb qalmışdır və ABŞ Prezidenti Donald Tramp fürsət düşən kimi onları yada salır. Ötən ay Tramp Parisə səfərindən sonra Fransanın ticarət siyasətində qüsurlardan bəhs etmiş, ölkədə işsizliyin yüksək səviyyəsini və Makronun reytinqinin aşağı düşdüyünü qeyd etmişdir. Fransa Prezidentinin Rusiya, Çin, hətta ABŞ-dan müdafiə olunmaq üçün Avropa ordusu yaratmaq təşəbbüsü Trampı cin atına mindirmişdir. ABŞ lideri fransız həmkarına xatırlatmışdır ki, Birinci və İkinci dünya müharibələrində Avropa ordusu ideyası "elə də yaxşı işləmədi", amma "ABŞ sizin yanınızda idi və həmişə yanınızda olacaq".

Fransada keçirilən etiraz aksiyaları da Trampın diqqətindən yayınmadı. Ağ evin sahibi faktiki olaraq rəsmi Parisi günahlandırıb "sarı jiletlər"in tərəfini saxladı: "Adamlar böyük məbləğdə pul ödəmək istəmir. Bəlkə, adamlara pulu daha aşağı vergilər şəklində geri qaytarmağın vaxtı gəlib çatmışdır?" ABŞ lideri fransız nümayişçilərinin səsləndirdiyi "Bizə Tramp lazımdır!" şüarını təkrarlamağı da unutmadı.

Ümumiyyətlə, Makron hakimiyyətə gələndən bəri daha çox Fransanın beynəlxalq aləmdə nüfuzunu itirməsi, tərəfdaşlarla münasibətləri korlaması ilə yadda qalmışdır. Fransa liderinin bu bədnam siyasi xətti Azərbaycandan da yan keçməmişdir.

Azərbaycan milli müstəqilliyini bərpa etdikdən sonra dünya ölkələri, o cümlədən Fransa ilə qarşılıqlı faydalı əməkdaşlıq qurmağa nail olmuş, ikitərəfli əlaqələri üçüncü ölkələrin təsirindən çıxara bilmişdir. Obyektivlik naminə qeyd etmək lazımdır ki, əvvəlki hakimiyyətlər, o cümlədən eks-prezident Fransua Ollandın hakimiyyəti zamanı erməni lobbisinin güclü olduğu Fransa Ermənistan və Azərbaycanla əlaqələrində balansı qorumağa çalışmış, Cənubi Qafqaz səfərlərinin traektoriyasını müəyyən edərkən bu balansı nəzərə almışdır. Lakin Makronun Elisey sarayına gəlişi ilə balans pozulmuş, Paris ermənipərəst mövqeyini açıq-aşkar büruzə vermişdir.

Təbii ki, Fransa iqtidarının belə bir mövqeyi reaksiyasız qala bilməzdi. Azərbaycan Prezidenti İlham Əliyev Makron hakimiyyətinin mahiyyətini uzaqgörənliklə təhlil etmiş, nəticədə Azərbaycan tərəfindən onun Bakıya səfəri ilə bağlı əvvəlcədən razılaşdırılmış addımlar atılmamışdır. Çünki Makronun Ermənistana səfəri zamanı gey-paradın nümayəndələri ilə birgə nümayiş etdirdiyi davranışlar, xüsusi məkana çəkilmələri barədə xəbərlər mediaya sızdıqdan sonra Azərbaycan tərəfi qeyri-ciddi tərəfdaşla əlaqələri davam etdirməkdə maraqlı olmamışdır. Fransada Birinci Dünya müharibəsinin bitməsinin 100 illiyi ilə bağlı keçirilən təntənəli mərasimdə də Azərbaycan Prezident və ya Baş nazir səviyyəsində deyil, xarici işlər naziri səviyyəsində təmsil olunmaqla kifayətlənmişdir.

Azərbaycan tərəfi Fransanın ermənipərəst mövqeyinə kəskin etiraz etmiş, Dağlıq Qarabağdakı separatçı rejimlə Fransanın ayrı-ayrı şəhərlərinin sıxlaşan əlaqələrinə etiraz əlaməti olaraq Fransanın ATƏT-in Minsk qrupuna həmsədrlikdən uzaqlaşdırılacağı barədə xəbərdarlıq etmişdir.

Əldə olan məlumata görə, Prezident İlham Əliyevin Parisə son səfəri zamanı imzalanmış müqavilələrin icrası Azərbaycan tərəfindən dayandırılmışdır. Fransanın beynəlxalq hüquqa və iki ölkənin ortaq maraqlarına zidd hərəkətləri Bakını belə qəti addım atmağa sövq etmişdir.

Beləliklə, Makronun təkcə daxili siyasətində yox, həm də xarici siyasətində böhran müşahidə edilir. Fransa Prezidentinin ölkəni bundan sonra necə idarə edəcəyi maraq doğurur. Bəzi ekspertlər hesab edirlər ki, siyasi böhranın dərinləşəcəyi təqdirdə Makron istefaya çıxmaq məcburiyyətində qala bilər.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

# Beynəlxalq münasibətlər və gələcək naminə dialoq zərurətə çevrilib

## Xarici ölkə səfirlərinin iştirakı ilə Bakı Slavyan Universitetində keçirilən "dəyirmi masa"da bu vacib məsələ diqqət mərkəzində saxlanılıb

Bakı Slavyan Universitetinin təşkilatçılığı ilə "Müasir cəmiyyət: beynəlxalq münasibətlər, gələcək naminə dialoq" mövzusunda "dəyirmi masa" keçirilib. Avstriya Respublikasının Azərbaycandakı fəvqəladə və səlahiyyətli səfiri Aleksandr Bayerl, Bolqarıstan Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Nikolay Yankov, Belarus Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfirinin müşaviri Mixail Aleksandroviç, Ukrayna Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Aleksandr Mişşenko, səfirliyin birinci katibi Georgi Selski, Rusiya Federasiyasının Azərbaycandakı səfirliyinin müşaviri Artyom Viktoroviç Barkov, Polşa Respublikasının Azərbaycandakı səfirliyinin müşaviri Artur Taraseviç, Azərbaycanın bir çox rəsmi dövlət strukturlarının rəhbərləri və universitetin tələbə-müəllim heyətinin iştirak etdikləri tədbirin moderatoru Yunanıstan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Nikolaos D.Kanellos olub. Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin vəfatının 15-ci ildönümü ilə əlaqədar xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.



Bakı Slavyan Universitetinin rektoru, professor Nurlana Əliyeva "dəyirmi masa"nı açaraq, rəhbəri olduğu elm müəssisəsinin slavyan ölkələri, o cümlədən Yunanıstan Respublikası və Türkiyə Cümhuriyyəti ilə sıx əlaqələrindən danışıb. Rektor BSU-nun tarixinə, keçdiyi inkişaf yoluna nəzər salaraq bu ali təhsil ocağının ulu öndər Heydər Əliyevin xeyir-duası və təşəbbüsü ilə ərsəyə gəldiyini vurğulayıb. Professor hər bir ölkənin və cəmiyyətin tərəqqisinin, inkişafının təhsilin səviyyəsi ilə bağlı olduğunu bildirib. O, bugünkü Azərbaycan gəncliyinin beynəlxalq aləmə inteqrasiya olunmasından, müxtəlif layihələr vasitəsilə onların müasir dünyaya çıxış imkanı əldə etməsindən söz açıb. BSU-da fəaliyyət göstərən tədris-mədəniyyət mərkəzləri vasitəsilə tələbələrin slavyan ölkələrinin mədəniyyəti, tarixi, etnoqrafiyası, siyasi-iqtisadi vəziyyəti ilə yaxından tanış olduqlarını qeyd edib.

"Dəyirmi masa"da xüsusi olaraq o da vurğulanıb ki, bu cür elmi xarakterli tədbirlərin əhəmiyyəti çox böyükdür. Çünki respublikamızda keçirilən müxtəlif beynəlxalq tədbirlər Azərbaycanın dünyada güclü mövqeyə malik olmasının göstəricidir. Bu, eyni zamanda dünyaya bütün istiqamətlərdə olduğu kimi, elm və təhsil sahəsinin də inteqrasiyası sayılır. Bütün bunlar isə ulu öndər Heydər Əliyevin ideyalarının gerçəkləşdirilməsi yolunda atılan mühüm addımlar və vacib məsələlərdir.

Azərbaycanın dünyada mövqeyinin ildən-ilə möhkəmləndirildiyinə diqqət çəkən professor xatırladıb ki, artıq bəşəriyyəti maraqlandıran geniş spektrli dialoqların, fikir mübadilələrinin, müzakirələrin mərkəzinə çevrilən ölkəmizin paytaxtı yalnız əsrlərin və mədəniyyətlərin qovuşuğu deyil, həm də bir sıra beynəlxalq humanitar forumların keçirildiyi məkan kimi də tanınır: "Ölkəmizin paytaxtı artıq neçə ildir ki, humanitar və inteqrativ impulsların yaradılması ilə yanaşı, beynəlxalq səviyyəli çağırışlar da həyata keçirir, sivilizasiyalar arasında körpü rolu oynayır, nəzəri və praktiki bilik mübadiləsini həyata keçirmək məqsədilə konstruktiv debatlara evsahibliyi edir. Beynəlxalq təşkilatlara, dünya ölkələrinə və ayrı-ayrılıqda hər bir şəxsə ünvanlanmış tövsiyələr və müraciətlər buradan səsləndirilir və dünyaya yayımlanır. İndiyədək keçirilən bir sıra beynəlxalq forumlar və digər tədbirlər bəşəriyyət qarşısında təhsilin və elmin insan kapitalının inkişafına istiqamətləndirilməsini, innovasiyaların iqtisadiyyatın yeni mənbəyinə çevrilməsini, cəmiyyətdə sabitliyin bərqərar olması üçün multikulturalizm siyasətinin həyat tərzi kimi gerçəkləşdirilməsini, sülh və davamlı inkişaf naminə mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsini prinsipial məsələ olaraq irəli sürmüşdür.

Rektor Azərbaycanın multikultural ölkə olduğunu, multikulturalizm siyasətinin dövlət tərəfindən hərtərəfli dəstəkləndiyini və bu ideyanın bütün ali məktəblərdə gənclərə aşılandığını, ölkə rəhbərinin "Multikulturalizm Azərbaycanda həyat tərzidir" tezisinin tədrisin bütün mərhələlərində özünü doğrultduğunu qeyd edib. Bildirilib ki, Azərbaycandakı xarici ölkə səfirlərini maraqlandıran əsas məsələlərdən biri də təhsil sahəsinin inkişafıdır.

Professor çıxışında səfirlik rəhbərlərini və nümayəndələrini universiteti müvafiq ixtisas üzrə bitirən gənclərimizin işlə təminatında dəstək olmağa çağırıb.

Daha sonra təhsil və müasir dünya, beynəlxalq layihələr və s. mövzularda müzakirələr aparan diplomatlar bu sahədə əməkdaşlığın vacibliyini bildirib və öz töhfələrini verməyə hazır olduqlarını qeyd ediblər.

Tədbirin sonunda Yunanıstan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Nikolaos D.Kanellos beynəlxalq konfransa evsahibliyi etdiyinə və yüksək səviyyəli təşkilatçılığa görə BSU rəhbərliyinə minnətdarlığını bildirib. Səfir konfransın gündəmin aktual məsələlərindən birinə həsr olunduğunu diqqətə çatdıraraq "dəyirmi masa"nın Azərbaycanın digər ölkələrlə humanitar sahədə əməkdaşlığına yeni töhfələr verəcəyinə əmin olduğunu ifadə edib.

Sonra diplomatlarla gənclər arasında təhsilin müxtəlif problemləri ilə bağlı diskussiya və fikir mübadiləsi aparılıb.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Hava pambıqçılara işləyir



Çöldə havanın temperaturu +10 dərəcədən yuxarıdır. Sanki apreldir. Hətta ara-sıra yağan yağışlar da hərarəti aşağı salmaq gücündə olmur. Bir sözlə, əsl pambıq yığımı havasıdır.

Amma aran bölgələrdə, yəni pambıq əkilmiş rayonlarda müşahidə olunan quraq hava digər mühüm bir sahə - taxılçılıq üçün sərfəli deyil. Bir tərəfdən yüksək temperatur üzündən açılan qozaları şum altına verməmək istəyi, başqa bir tərəfdən də taxıl səpilmiş sahələr üçün vacib olan yağıntının olmaması gələn il sözügedən sahədə arzuedilməz vəziyyət yarada bilər. Necə deyərlər, iki əkinçidən (pambıqçı və taxılçı) biri "bankrot" olmalıdır, daha doğrusu, nəyi isə itirməlidir. Hələliksə itirən taxılçı, qazanan pambıqçıdır. Amma məsələ bundadır ki, hazırda növbəli əkinə üstünlük verildiyindən onların hər ikisi eyni adama aiddir. Bəlkə də belə olması daha yaxşıdır, yəni əkinçi taxıldan itirəcəyini bəri başdan pambıqdan qazanır.

İndi isə Dövlət Statistika Komitəsinin pambıq tədarükünə dair dekabrın 11-nə olan məlumatı barədə. 132,5 min hektar sahədən 222,7 min tondan çox pambıq toplanmışdır. Bu da ötən ilin eyni dövründə yığılmış məhsuldan 22,9 min ton, yaxud 11,5 faiz çoxdur. Həftə ərzində tədarük edilmiş pambığın həcmi isə 1,5 min ton olmuşdur. Nəzərə alsaq ki, əvvəlki həftələr ərzində xeyli çox məhsul toplanırdı, onda yığımın yekunlaşmaq üzrə olduğu qənaətinə gəlmək mümkündür, hətta havalar pambığa işləsə də...

Belədə istehsalın həcminə görə rayonların sıralanmasında da yerdəyişmələr mümkün deyil. Yenə də 29,3 min tonla bu sıralamaya Saatlı başçılıq edir. Onun ardınca Bərdə (24,3 min ton), Ağcabədi (22,4 min ton), Biləsuvar (21,07 min ton), Beyləqan (20,8 min ton), İmişli (17,5 min ton), Sabirabad (16,6 min ton), Salyan (10,03 min ton) gəlir. 9,8 min tonla Neftçala, 8,8 min tonla Goranboy, 7,8 min tonla Tərtər, 6,2 min tonla Kürdəmir, 5,5 min tonla Ağdam, 5,1 min tonla Yevlax məhsuldarlığa görə fərqlənənlər sırasındadır.

**11.12.2018-ci il tarixə pambıq tədarükünə dair operativ məlumat**

| Rayonlar | Əkin sahəsi, hektar | | | 11 dekabr tarixə pambıq qəbulu məntəqələrinə təhvil verilmişdir, ton | | |
|---|---|---|---|---|---|---|
| | 2018-ci il | 2017-ci il | 2018-ci il 2017-ci ilə nisbətən | 2018-ci il | 2017-ci il | 2018-ci il 2017-ci ilə nisbətən |
| **Respublika üzrə cəmi** | **132512,0** | **136413,2** | **97,1%** | **222748,40** | **199818,10** | **111,5%** |
| Ağcabədi rayonu | 10000,0 | 9550,0 | 104,7% | 22405,10 | 19643,33 | 114,1% |
| Ağdam rayonu | 3100,0 | 3005,0 | 103,2% | 5518,43 | 6048,30 | 91,2% |
| Ağdaş rayonu | 3185,0 | 3000,0 | 106,2% | 3699,43 | 3563,43 | 103,8% |
| Ağsu rayonu | 2600,0 | 2500,8 | 104,0% | 1844,69 | 2522,10 | 73,1% |
| Beyləqan rayonu | 9560,0 | 8550,0 | 111,8% | 20882,04 | 15220,24 | 137,2% |
| Bərdə rayonu | 9630,0 | 8518,5 | 113,0% | 24311,15 | 21663,44 | 112,2% |
| Biləsuvar rayonu | 12000,0 | 11351,8 | 105,7% | 21074,45 | 24270,94 | 86,8% |
| Cəlilabad rayonu | 505,0 | 500,0 | 101,0% | 1170,67 | 981,00 | 119,3% |
| Füzuli rayonu | 2100,0 | 2050,0 | 102,4% | 2006,59 | 1984,30 | 101,1% |
| Goranboy rayonu | 5000,0 | 5000,0 | 100,0% | 8803,94 | 6689,70 | 131,6% |
| Hacıqabul rayonu | 1300,0 | 1203,9 | 108,0% | 1135,23 | 872,32 | 130,1% |
| İmişli rayonu | 13645,0 | 15641,5 | 87,2% | 17582,39 | 13463,18 | 130,6% |
| Kürdəmir rayonu | 5030,0 | 4027,0 | 124,9% | 6269,02 | 4611,31 | 135,9% |
| Neftçala rayonu | 7000,0 | 11111,0 | 63,0% | 9847,98 | 8743,93 | 112,6% |
| Saatlı rayonu | 15815,0 | 17220,0 | 91,8% | 29342,76 | 25455,60 | 115,3% |
| Sabirabad rayonu | 13055,0 | 15055,0 | 86,7% | 16619,65 | 17625,63 | 94,3% |
| Salyan rayonu | 7055,0 | 7052,4 | 100,0% | 10033,01 | 8912,80 | 112,6% |
| Samux rayonu | 400,0 | 53,0 | 7,5 dəfə | 922,61 | 45,66 | 20,2 dəfə |
| Tərtər rayonu | 3300,0 | 3123,0 | 105,7% | 7841,03 | 8193,70 | 95,7% |
| Ucar rayonu | 2500,0 | 2500,0 | 100,0% | 1567,84 | 2038,32 | 76,9% |
| Yevlax şəhəri | 2500,0 | 2168,0 | 115,3% | 5149,90 | 3248,07 | 1,6 dəfə |
| Zərdab rayonu | 3232,0 | 3232,3 | 100,0% | 4720,49 | 4020,80 | 117,4% |

**Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi**

# İnnovasiya müsabiqəsinin qalibi olan Bakı Ali Neft Məktəbinin tələbələri təltif olundular

Bakı Ali Neft Məktəbinin (BANM) tələbələri qalibi olduqları İkinci Respublika İnnovasiya Müsabiqəsinin təltifetmə mərasimində iştirak ediblər.




Özlərinin "ThermoNorth" adlı startup layihələrilə qalib gələn tələbələrə iqtisadiyyat naziri Şahin Mustafayev tərəfindən sertifikat və müsabiqənin əsas mükafatı - 5000 AZN məbləğində pul təqdim olunub.

Tədbirdə çıxış edən komanda üzvü Aleksandr Oborovskiy müsabiqənin bütün təşkilatçılarına, xüsusilə İqtisadiyyat Nazirliyinə təşəkkür edib. Daha sonra o "ThermoNorth" startup layihəsinin mahiyyəti və məqsədi haqqında tədbir iştirakçılarına qısa prezentasiya edib, həmçinin layihə üzərində işləyən digər komanda üzvlərini - ali məktəbin tələbəri Elmar Əsgərzadə, Hüseyn Əliyev, Yadigar Nəzərov, Murad Rəhimov və onlara layihə işləmələri zamanı rəhbərlik edən BANM-ın dosenti Əmir Rza Vəxşurini iştirakçılara təqdim edib.

Qeyd edək ki, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Azərbaycan Respublikasının Milli Elmlər Akademiyası və Birləşmiş Millətlər Təşkilatının Azərbaycan Nümayəndəliyi ilə birgə təşkil edilən müsabiqədə ölkənin gənc tədqiqatçılarının 220-yə yaxın layihəsi təqdim olunmuşdu.

***"Azərbaycan"***

# XİN: "Danimarkanın "Novo Nordisk" şirkəti Dağlıq Qarabağ ərazisində heç bir iqtisadi fəaliyyətlə məşğul deyil"

Ölkəmizin kütləvi informasiya vasitələrində yayılmış Danimarkanın dərman preparatları istehsalçısı olan "Novo Nordisk" şirkəti tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma separatçı rejimə dərman məhsullarının satışının həyata keçirilməsi haqqında məlumat Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin təlimatı əsasında ölkəmizin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığındakı səfirliyi tərəfindən araşdırılıb. Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Məlumatda deyilir: "Araşdırma nəticəsində müəyyən olunub ki, Danimarkanın "Novo Nordisk" şirkəti Dağlıq Qarabağ ərazisində heç bir iqtisadi fəaliyyətlə məşğul deyil, bu ərazi ilə heç bir ticarət müqaviləsi mövcud deyil və Dağlıq Qarabağa heç bir məhsul ixrac edilməyib. Bu məlumatı öz məktubunda təsdiq edən Danimarka şirkəti Azərbaycan Respublikasının ərazi bütövlüyünə hörmət etdiyini və Azərbaycanın milli qanunvericiliyi, eləcə də beynəlxalq hüquqa uyğun fəaliyyət göstərdiyini xüsusi olaraq vurğulayıb. Danimarka şirkəti, həmçinin mətbuatda bu cür xəbərlərin yayılmasından narahat olduğunu və "Novo Nordisk"in Azərbaycanla əməkdaşlığı davam etdirməkdə maraqlı olduğunu qeyd edib".

# REQUEST FOR EXPRESSIONS OF INTEREST

**Azerbaijan Republic**
**Agricultural Competitiveness Improvement Project**
**Loan No.** 8286-AZ

**Assignment Title: Food Safety Coordinator**
**Reference No.** A1/CS-5

The Government of Azerbaijan has received financing from the World Bank toward the cost of the Agricultural Competitiveness Improvement Project, and intends to apply part of the proceeds for consulting services.

The project consists of four components:
(I) *Component A - Support for sanitary and phytosanitary services, which is structured into three subcomponents: support: (i) Food Safety Capacity Building; (ii) Upgrading Plant Health and Phytosanitary System, and (iii) Animal Health and Veterinary Services.*
(II) *Component B - Agri-food value chain development. The activities will be structured into two sub-components: (i) Investment and advisory support for agribusiness value chain development, and (ii) Seed sector development.*
(III) *Component C - Financial services to agribusiness.*
(IV) *Component D - Project Management.*

**The consulting services include:**
Prepare implementation schedule for the sub-component activities; coordinate activities of international consultants for development and implementation of strategy for optimization and modernization of lab network; work closely with international TA on preparation of list of equipment and technical specifications for lab equipment, research equipment and etc.; participate in recruitment of international consultants, including preparation of the TORs and evaluation of CVs; assist with procurement of equipment; identification of training needs of AFSA and AFSI and organization of training programs; manage the training needs assessment and activities on modernization of food safety curriculum of universities; collect monitoring data on sub-component implementation; develop implementation and progress reports of the subcomponent; assist international TA in conducting feasibility study of traceability system of food products and if feasible developing procurement plan.

The assignment of the Food Safety Coordinator shall be time based. S/he will be appointed for a period of 19 months (Dec 2018 - June 2020).

The Agricultural Competitiveness Improvement Project now invites eligible individual consultants to indicate their interest in providing the Services, interested Consultants should provide information demonstrating that they have the required qualifications and relevant experience to perform the Services.

**The shortlisting criteria are:**
- Higher education with university degree in related field;
- Good command of English;
- At least 5 years of experience in related field;
- Work experience with international organizations;
- Experience in preparation of training and workshop programs and in organization of information campaign and symposiums;
- Excellent communication skills;
- Problem solving and administrative skills;
- Strong computer literacy especially in MS Office software.

The attention of interested Consultants is drawn to paragraph 1.9 of the World Bank's Guidelines: Selection and Employment of Consultants under IBRD Loans and IDA Credits & Grants] by World Bank Borrowers, January 2011 edition, revised July 2014 ("Consultant Guidelines"), setting forth the World Bank's policy on conflict of interests.

A Consultant will be selected in accordance with the Individual Consultancy method set out in the Consultant Guidelines.

Further information can be obtained at the address below during office hours 09:00 to 18:00.

Expressions of interest must be delivered in a written form to the address below (in person, or by mail, or by fax, or by e-mail) by December 24. 2018.

Required Documents:
1) Signed copy of CV prepared in English language;
2) Copy of diplomas, certificates etc.

**The State Service on Management of Agricultural Projects and Credits under the Ministry of Agriculture of the Republic of Azerbaijan**
**Agricultural Competitiveness Improvement Project**
**Attn: Mr. Anar Azimov**
**Project Director**
**at 25, Nobel Avenue Baku White City Business Center, AZ 1025, Baku, Azerbaijan,**

**Tel: (+99412) 498 89 14/ int.3015**
**E-mail: a.azimov@agrocredit.gov.az;**
**yegana.acip@gmail.com; nargiz.acip@gmail.com**
**Web: agrocredit.gov.az**

## Mərkəzi Muğan Kollektorlarının İstismarı İdarəsi

*Təkrar*

### *açıq tenderə dəvət edir*

**Tender 3 LOT üzrə keçirilir:**
**LOT - 1** Maşın və mexanizmlər üçün ehtiyat hissələrinin satın alınması.
**LOT - 2** Əsaslı və cari təmir üçün tikinti materiallarının satın alınması.
**LOT- 3** Qum-çınqıl məmulatlarının satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər hər LOT üzrə 55 manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu İmişli rayonu Qaradonlu kəndində yerləşən Mərkəzi Muğan Kollektorlarının İstismarı İdarəsindən (əlaqələndirici şəxs: Ə.Nəsirov, telefon: 2-12-62) ala bilərlər.

| | |
|---|---|
| **Təşkilat :** | **Mərkəzi Muğan KİI** |
| **Hesab:** | **İmişli YXO; AZ49AIIB32051019446700201167** |
| **VÖEN:** | **5500116521** |
| **Bank:** | **"Kapital Bank"ın İmişli filialı** |
| **Kodu:** | **200673** |
| **VÖEN:** | **9900003611** |
| **Müxbir hesabı:** | **AZ37NABZ01350100000000001944** |

**S.W.I.F.T; BIK AİI BAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*-tender təklifi (zərflərin açıldığı tarixdən ən azı 30 bank günü quvvədə olmalıdır);*
*-tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*-müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti ) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 07 yanvar 2019-cu il saat 17:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 16 yanvar 2019-cu il saat 17:00-a qədər İmişli rayonu, Qaradonlu kəndində yerləşən Mərkəzi Muğan Kollektorlaının İstismarı İdarəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 17 yanvar 2019-cu il saat 11:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Sumqayıt Kimya Sənaye Parkı" MMC tərəfindən Pirallahı Sənaye Parkının elektrik şəbəkəsinin tikinti işlərinin satın alınması ilə əlaqədar keçirilmiş təkliflər sorğusu prosedurunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir.

Təkliflər sorğusunun nəticələri haqqında Tender komissiyasının qərarına əsasən "İMA-ENERGY" MMC qalib elan edilmiş və həmin təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Sumqayıt Kimya Sənaye Parkı" MMC tərəfindən Sumqayıt Kimya Sənaye Parkının 167,66 hektar ərazisində Peşə Tədris Mərkəzinin və 3 ədəd emalatxananın qazanxanasının tikinti işlərinin satın alınması ilə əlaqədar keçirilmiş təkliflər sorğusu prosedurunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir.

Təkliflər sorğusunun nəticələri haqqında Tender komissiyasının qərarına əsasən "Progress Construction" MMC qalib elan edilmiş və həmin təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

# Beynəlxalq aləm
## HADİSƏLƏR, FAKTLAR



## Türkiyədə həftə ərzində 26 terrorçu zərərsizləşdirildi

Son bir həftə ərzində Türkiyədə keçirilmiş antiterror əməliyyatları nəticəsində 26 terrorçu zərərsizləşdirilmişdir. Bu barədə ölkənin Daxili İşlər Nazirliyi məlumat vermişdir.

Göstərilən müddətdə təhlükəsizlik qüvvələri terrorçulara və onların əlaltılarına qarşı 2817 əməliyyat keçirmişdir. Zərərsizləşdirilmiş terrorçulardan biri öldürülmüş, 19-u tutulmuş, 6-sı silahı yerə qoyaraq təslim olmuşdur.

Doqquz vilayətdə terrorçuların 40 sığınacağı məhv edilmiş, 4 əldəqayırma partlayıcı qurğu, 426 kiloqram partlayıcı, 21 vahid silah, 2 əl qumbarası və 2027 döyüş sursatı müsadirə olunmuşdur. 4403 nəfər saxlanmışdır. Onlardan 926-sı terrorizmdə, 187-si qanunsuz miqrasiya ilə əlaqəli cinayətlərdə, 3290-ı narkoticarətdə və qaçaqmalçılıqda şübhəli bilinir.

## Suriyada bombardman qurbanlarının məzarları tapıldı



Suriyanın Rəqqə şəhərində ən böyük kütləvi məzarlardan biri aşkar edilmişdir. Bu barədə "Rossiya 24" telekanalı xəbər verir.

Yeddi məzardan şəhər sakinlərinin 500-dən çox cəsədi çıxarılmışdır. Onların arasında çoxlu qadın və uşaq da var. Dinc sakinlər ABŞ-ın başçılıq etdiyi beynəlxalq koalisiyanın hava hücumlarının qurbanı olmuşdur.

Şəhər Şurasından verilən məlumata görə, daha üç qardaşlıq məzarı tapılmışdır. Orada 1000-ə yaxın cəsəd ola bilər.

## Çində nadir dəmiryolu körpüsü tikildi



Çinin cənub-qərbində yerləşən Yunnan əyalətində nadir dəmiryolu körpüsünün tikintisi başa çatmışdır. O, dünyada ən uzunkeçidli tağlı körpü olacaq. Bu barədə "China Railways" qəzeti xəbər verir.

Yeni körpünün uzunluğu 1024 metr, eni 25 metrdir. Konstruksiyanın nadirliyi ondadır ki, körpü dördzolaqlı dəmir yolu stansiyası kimi layihələndirilmişdir. Onun inşası üçün 46 min ton polad, 800 min bolt və çəkisi 20 tondan 100 tonadək olan 922 polad dayaq lazım olmuşdur.

## Tailandda siyasi fəaliyyətə qoyulmuş qadağa ləğv olundu



Tailandda 2014-cü ilin mayından bəri hər cür siyasi fəaliyyətə qoyulmuş qadağa Milli Sülh və Asayiş Şurasının (MSAŞ, qanunvericilik səlahiyyətləri olan hərbi hökumət) rəhbəri, general Prayut Çan-Oçun əmri ilə ləğv edilmişdir. Əmr rəsmi qəzetdə dərc olunmuş və qüvvəyə minmişdir.

Əmrdə deyilir ki, fevralın 24-ə təyin olunmuş seçkilərlə əlaqədar MSAŞ siyasi fəaliyyətə qoyulmuş qadağa, siyasi mitinq və toplantılar, siyasi partiyaların qurultayları, seçkiqabağı təşviqat məhsullarının istehsalı və yayılması, KİV-də təşviqat tədbirləri və çıxışları, habelə siyasi fəaliyyətin digər aspektlərinə qoyulmuş qadağa ləğv edilir.

Dünən Tailand Seçki Komissiyası 2019-cu il fevralın 24-də parlament seçkilərinin keçiriləcəyini elan etmişdir. Bu, 2011-ci ildən bəri ilk parlament seçkiləri olacaq.

## KXDR ABŞ-ın yeni sanksiyalarına sərt cavab verdi



ABŞ-ın Şimali Koreyaya qarşı sanksiyaları genişləndirməsi Prezident Donald Trampın KXDR lideri ilə Sinqapur görüşü zamanı əldə olunmuş sazişlərin ruhuna ziddir. Pxenyanın bu mövqeyini "Rodong Sinmun" dövlət qəzeti dərc etmişdir. Bəyanata səbəb KXDR-in üç vətəndaşının, o cümlədən dövlət başçısı Kim Çen İnin silahdaşının adının sanksiyalar siyahısına salınması olmuşdur.

Qəzet Koreya Əmək Partiyası Mərkəzi Komitəsinin (KƏP MK) üzvlərinə qarşı sanksiyaları Vaşinqton tərəfindən düşmənçilik və təxribat kimi qiymətləndirmişdir.

Qeyd edək ki, ABŞ KXDR Dövlət Şurasının sədr müavini, KƏP MK Siyasi Bürosu Rəyasət Heyətinin üzvü Soy Ren Xeni, Ali Xalq Məclisi Rəyasət Heyətinin sədri Kim Yen Namı və KƏP MK Siyasi Bürosunun üzvü Pak Qvan Xonu qara siyahıya salmışdır. Onlar insan hüquqlarını pozmaqda ittiham edilirlər.

## Əfqanıstanda intiharçı hərbi karvanı partlatdı



Əfqanıstanın paytaxtı Kabilin yaxınlığında baş vermiş partlayış nəticəsində ölkənin kəşfiyyat xidmətinin dörd əməkdaşı həlak olmuşdur. Bu barədə "TOLO News" teliekanalı xəbər verir.

Hücum Paqman qəzasında həyata keçirilmişdir. Partlayış zamanı altı nəfər yaralanmışdır.

İlkin məlumata görə, hərbçilərin karvanına istiqamətləndirilmiş avtomobil partlamışdır. Partlayıcı qurğu terrorçunun idarə etdiyi maşında olmuşdur.

Terror aktına görə hələ ki heç bir qruplaşma məsuliyyəti üzərinə götürməmişdir.

# M.Mehdizadə küçəsində 46 mənzilin və 3 obyektin icazəsiz sökülməsi ilə əlaqədar cinayət işi başlanıb

İnşaat sektorunda yol verilmiş qanun pozuntularının qarşısının alınması, bu sahədə aşkarlanan korrupsiya hüquqpozmalarına qarşı mübarizə çərçivəsində Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi ilə birgə tədbirləri davam etdirir.

Hər iki qurumun mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, Bakı şəhəri, M.Mehdizadə küçəsi, 2-4 saylı ünvanda yaşamış vətəndaşların kollektiv müraciəti əsasında Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən aparılmış araşdırma nəticəsində "İnşaat Konstruksiyaları" MMC-nin vəzifəli şəxsləri tərəfindən Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin müddəaları pozulmaqla həmin ünvanda mövcud yaşayış və qeyri-yaşayış bina və qurğularının sökülmə işlərinin təşkili layihəsi hazırlanmadan və sökülmə işlərinin aparılmasına dair icazə alınmadan 46 mənzilin və 3 qeyri-yaşayış obyektinin söküldüyü müəyyən edilib. Bu barədə toplanmış materiallar aidiyyəti üzrə Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinə göndərilib.

Aparılmış araşdırmalarla "İnşaat Konstruksiyaları" MMC-nin vəzifəli şəxslərinin həmin qanunsuz hərəkətlərlə vəzifə səlahiyyətlərindən sui-istifadə etmələrinə və özbaşına tikinti işləri aparmalarına əsaslı şübhələr müəyyən olunduğundan Cinayət Məcəlləsinin 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 222-1.1-ci (özbaşına tikinti işləri aparma) maddələri ilə cinayət işi başlanıb.

Hazırda cinayət işi üzrə həmin qanunsuz halların tam və hərtərəfli araşdırılmaqla təqsirkar şəxslərin dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb olunmaları istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi və Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tikinti fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslərə bir daha müraciət edərək, şəhərsalma qanunvericiliyinin bütün tələblərinə riayət etməyə çağırır. Müvafiq icra hakimiyyəti orqanlarından tikintiyə icazə sənədi və tikinti işlərinə başlanılmasına dair xüsusi nişan alınmadan hər hansı tikinti və ya söküntü işlərinin aparılması qadağandır. Bu sahədə mövcud qanunvericiliyin tələblərini pozan şəxslərə qarşı ən ciddi tədbirlər görüləcək.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclis Aparatı Beynəlxalq münasibətlər şöbəsinin müdiri və əməkdaşları iş yoldaşları Aynur Nurəhmədovaya əzizi

**SÜRƏYYA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Təlatüm Quliyev və Milli Məclis Aparatı Ümumi şöbəsinin əməkdaşları aparatın İnzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Nizami Səfərova əzizi

**SÜRƏYYA QASIMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclis Aparatının Dövlət quruculuğu üzrə qanunvericilik şöbəsindən Hacı Mirhəşim Seyid, Fuad Məmmədov, Aqşin Məmmədzadə, Elçin Quliyev, Sarvan Sadıqov, Ayxan Kazımov, Yunis İsmayılov, İsmayıl Cəfərov, Nüşabə Xəlilova, Ayan Murtuzova, Rüfət Ələkpərov, Səməd Sultanov, Sədaqət Bağırova və Ceyhun Əliyev Nizami və Niyazi Səfərov qardaşlarına əzizləri

**SÜRƏYYA QASIMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Müdafiə Sənayesi Nazirliyinin rəhbərliyi və kollektivi iqtisadiyyat nazirinin müavini Niyazi Səfərova əzizi

**SÜRƏYYA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi və kollektivi agentliyin Nəqliyyat İdarəsinin rəis müavini Əsədulla Savzixanova əzizi

**RAFİQ MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi iqtisadiyyat nazirinin müavini Niyazi Səfərova əzizi

**SÜRƏYYA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərenerji" ASC-nin prezidenti Baba Rzayev Vergilər Nazirliyi Xüsusi Rejimli Vergi Xidməti Departamentinin rəisi Zaur Fətizadəyə anası

**ZİNAİDA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Azərenerji" ASC-nin prezidenti Baba Rzayev Nizami və Niyazi Səfərov qardaşlarına əzizləri

**SÜRƏYYA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarənin prokuroru Zöhrab Əliyevə anası

**BALAXANIM ƏLİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini Niyazi Səfərova əzizi

**SÜRƏYYA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi iqtisadiyyat nazirinin müavini Niyazi Səfərova əzizi

**SÜRƏYYA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Xaçmaz Rayon Məhkəməsinin sədri Xıdır Quliyev və məhkəmənin kollektivi Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin sədri Araz Kazımova atası

**NURƏDDİN KAZIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Kürdəmir Rayon Məhkəməsinin sədri Müseyib Bayramov və məhkəmənin kollektivi Binəqədi Rayon Məhkəməsinin sədri Araz Kazımova atası

**NURƏDDİN KAZIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8412
Sifariş 3721